www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 dekabr 2016-cı il Cümə № 274 (6595) Qiymәti 60 qәpik

**Xəbər**

## Beynəlxalq Bankın rəhbəri saxlanıldı-iddia

yazısı səh.2-də

**Gündəm**

### Parlamentdə büdcə müzakirələri bitdi-hökumətə 8 gün vaxt verildi



Nazirlər Kabineti əlavə və təkliflərə baxıb dekabrın 16-da büdcə qanununu yenidən parlamentə təqdim edəcək

yazısı səh.3-də

### "Xalq diplomatiyası"nın iştirakçısı olmuş konfliktoloqdan təklif

yazısı səh.10-da

### Qarabağda erməni əsgərlər bir-birini qırır

yazısı səh.5-də

### Azərbaycan at əti ixrac edəcək; onu kimlər və necə yeyir...

yazısı səh.14-də

### ABŞ-ın demokratiya üçün ayırdığı milyonlar-Bakıdan narahat reaksiyalar

yazısı səh.7-də

### Redaktorlardan reket jurnalistikaya qarşı mübarizəyə tam dəstək

yazısı səh.6-da

### Müxalifət virtual mübarizədən virtual üzvlüyə keçdi

yazısı səh.7-də

### Eldar Mahmudovun daha bir dəstəsinin mühakiməsi başlayır

yazısı səh.6-da

### Sərt qış qapıda... evsizləri necə qoruyaq?

yazısı səh.13-də

### Mərkəzi Bankın dollar limiti qüvvəyə mindi

yazısı səh.13-də

### İqtisadi böhran varlılar üçün böyük təhlükədir-səbəb oğrulardır...

yazısı səh.4-də

## Rusiya nəşrindən sensasion iddia

# TÜRKİYƏ VƏ RUSİYA ANLAŞIB - HƏLƏB QARABAĞA DƏYİŞDİRİLİR...

Moskva- Bakı- Ankara-İrəvan dördlü formatı yaradılır?; Mövlud Çavuşoğlunun Bakı, baş nazir Binəli Yıldırımın isə Moskva səfərlərinin detalları açılır; **ekspert:** "Ankara Moskvanı inandırmağa nail olacaq ki..."




yazısı səh.5-də

## "Qaçqınkom" qaçqın güzəştlərindən niyə əl çəkmir?

Komitə sədri Əli Həsənov dövlət məmuru olaraq dövlət vəsaitlərindən səmərəli istifadə olunmasında bilavasitə maraqlı olmalıdır, amma...

yazısı səh.12-də



*Hikmət Hacızadə:*

### "Fransanın daxili işlər naziri kimdir ki, biz ondan çəkinək..."

yazısı səh.10-da



*Qubad İbadoğlu:*

### "Azərbaycanda "İlin qəhrəmanı" dollar oldu"

yazısı səh.13-də



### "Hələ də gec deyil..." - İqbal Ağazadə ilə Azərbaycanın durumunun təhlili

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016



## “Şücaətə görə” medalı təsis edildi

**Azərbaycan prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının "Şücaətə görə" medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunda dəyişiklik edilməsi barədə" 2016-cı il 14 oktyabr tarixli qanunun tətbiqi və “Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında” 2004-cü il 25 iyun tarixli sərəncamda dəyişikliklər edilməsi barədə fərman imzalayıb.**

Bununla əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunun 2-ci maddəsinə “Hərbi xidmətdə fərqlənməyə görə” medalı" hissəsindən sonra yeni hissə əlavə edilib.

Dövlət başçısının “Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında” 2004-cü il 25 iyun tarixli sərəncamının 1-ci hissəsinə “Hərbi xidmətdə fərqlənməyə görə” sözlərindən sonra “Şücaətə görə” sözləri, “Azərbaycan Respublikasının fövqəladə hallar nazirinə” sözlərindən sonra “Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi xidmətinin rəisinə, Azərbaycan Respublikasının xarici kəşfiyyat xidmətinin rəisinə” sözləri əlavə edilib və həmin hissədən “Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinə” sözləri çıxarılıb.

## Bakıda yeni avtomobil yollarının açılışı olub

**Prezident İlham Əliyev dekabrın 8-də Bakının Suraxanı rayonunda Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun 5 kilometrlik hissəsinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib. Bu yolda əsaslı yenidənqurma işləri “Bakı şəhəri Suraxanı rayonunun Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına uyğun olaraq aparılıb.**

## Beynəlxalq Bankın eks-rəhbəri saxlanıldı-iddia

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin eks sədri, vəzifəsindən sürpriz şəkildə azad edilən Elmar Məmmədov saxlanılıb. Bu barədə virtualaz.org-a hüquq-mühafizə orqanlarındakı mənbələrdən məlum olub. Məlumata görə Elmar Məmmədov heç kimin gözləmədiyi halda vəzifəsindən azad ediləndən dərhal sonra hüquq-mühafizə orqanları onu saxlayıb.**

Elmar Məmmədov bu vəzifədə hazırda həbsdə olan Cahangir Hacıyevi əvəzləmişdi və onun Beynəlxalq Bankın rəhbərliyinə gətirilməsi faktiki olaraq batırılan dövlət bankını sağlamlaşdırmaq tədbirlərinin bir hissəsi idi. Lakin belə görünür ki, Elmar Məmmədov ona göstərilən etimadı doğrultmayıb. Hələlik onun nədə ittiham edildiyi məlum deyil. Bununla belə ehtimal edilir ki, Elmar Məmmədovun vəzifədən azad edilməsi və saxlanılması dollar “qara bazarı”nın geniş vüsət alması və son vaxtlar valyuta spekulyasiyasının narahatlıq doğuracaq dərəcədə artmasıdır. Hazırda hüquq-mühafizə orqanları Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birlikdə dollar “qara bazarı” ilə bağlı araşdırma aparır, banklardan dolların qara bazara necə ötürüldüyünü üzə çıxarmağa çalışır.

Qeyd edək ki, bu yaxınlarda Azərbaycan Dövlət Neft Fondunun Beynəlxalq Bankda aşağı faizlə rekord həcmdə-1 milyard dollar depozit yerləşdirmişdi və bu, valyuta bazarında ajiotajı aradan qaldırmaq üçün atılan addımlardan biri idi. Həmin depozitin yerləşdirilməsindən sonra doğrudan da bazarda bir müddət dollar bolluğu yarandı, manat yenidən dəyər qazanmağa başladı. Ancaq daha sonra dollar yenidən qıtlaşdı, məzənnə isə artmaqdadır...

**“Qaya Mətbuat Yayımı” MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# Məhbəs yoldaşları Əli İnsanovla maraqlanırmı?

**Tofiq Yaqublu:** “Əgər ona sovqat aparsam...”
**Fərəc Kərimli:** “Daim məlumatım olur”



**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun əlavə cinayət maddələri ilə barəsində 3 ay seçilən həbs-qətimkan qərarından iki ay ötür. 11 illik cəzası başa çatdıqdan sonra azad edilməyən sabiq nazir hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır.**

Ə.İnsanov barəsində həbs-qətimkan qərarı seçildiyi gündən bu günə qədər diqqətçəkən bir məqam var. Belə ki, sabiq nazir və çevrəsi, eləcə də, vəkili son iki ayda demək olar ki, mətbuatdan və ictimaiyyətə açıqlama verməkdən qaçırlar. Bu ayında sonunda əfv sərəncamına düşə biləcəyi ilə bağlı yayılan xəbərlər də artıq mümkünsüz görünür. Çünki onun məhkəməsinin Yeni ilə qədər başlayacağı və başa çatacağı deyilirdi. Lakin görünən odur ki, sabiq nazirin məhkəməsi Yeni ildən sonraya qaldı. Bu da onun əfvə düşmək şansının üzərindən birdəfəlik xətt çəkdi.

13 saylı cəzaçəkmə müəssisəsində cəzasını çəkərkən sabiq nazirlə birlikdə həmin müəssisədə olan keçmiş siyasi məhbuslardan onunla maraqlanıb-maraqlanmamalarını soruşduq.

**Müsavat başqanının müavini Tofiq Yaqublu sabiq dövlət məmuru ilə daim maraqlandığını bildirdi:** “Əli müəllim başda olmaqla digər siyasi məhbuslarla daim maraqlanıram. Onlar hər zaman diqqətimdədir. Yeri gəlmişkən bildirim ki, diplomatik korpusun nümayəndələri ilə görüşlərim olur və hər görüşümdə bu məsələni qaldırıram. Çox təəssüf ki, Əli müəllimlə görüşmək, əlaqə yaratmaq imkanlarımız yoxdur. Əgər ona sovqat aparsam belə bilirəm ki, onu məndən qəbul etməzlər. Onun belə bir problemi də yoxdur. Ailəsi onu təmin edir. Əsas problem onun azadlığa buraxılmamasıdır. Bu yaşda olan, 11 il həbsdə yatmış bir akademikə bu qədər qəddarlıq etmək ağıla sığmayan bir əməldir. Buna çox təəssüflənirəm. Onun azadlığa buraxılması üçün hamı çalışmalıdır”.

**Sabiq nazirlə bir müddət eyni müəssisədə cəza çəkən Müsavat başqanının digər müavini Fərəc Kərimli Ə.İnsanovun vəkili vasitəsilə onunla hər zaman maraqlandığını bildirdi:** “Yanına getməyimizin mümkünsüz olduğu məlumdur, çünki görüşə icazə verilməz. Amma vəkili vasitəsilə Əli İnsanov barədə daim məlumatım olur. Əhval-ruhiyyəsi, vəziyyəti yaxşıdır. Başqa məlumatım yoxdur”.

**Cavanşir ABBASLI**

## AZAL qiymətləri qaldırmayacaq

**Bu yaxınlarda Tarif Şurası tərəfindən aviasiya yanacağının qiymətinin artırılması “Azərbaycan Hava Yolları” (AZAL) milli aviadaşıyıcısının aviabiletlərinin cari tariflərinə təsir etmir.**

Bu barədə virtualaz.org-a AZAL-ın İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilir ki, bütün aviaşirkətlərdə olduğu kimi AZAL-ın aviabiletlərinin qiyməti uçuş tarixlərindən və reyslərdə yerlərin doluluğundan asılı olaraq formalaşır.

“Biz vətəndaşlarımız üçün münasib qiymətə səyahət və işgüzar səfər etmək imkanını saxlamaq istəyirik. Aviasiya yanacağının qiymətinin artırılması şübhəsiz ki, xərclərimizə təsir göstərəcək, lakin sərnişinlər üçün aviabiletlərin tariflərinə təsir göstərməyəcək”, - “Azərbaycan Hava Yolları” QSC-nin Prezidenti Cahangir Əsgərov bildirib.

**Qeyd edək ki, aviaşirkət 26 beynəlxalq istiqamət üzrə birbaşa aviareyslər, eləcə də Naxçıvan və Gəncəyə daxili reyslər yerinə yetirir.**

## “NİDA” üzvü 10 il müddətinə azadlıqdan məhrum edilib

**Bakı Ağır Cinayətlər Məhkəməsində “NİDA” Vətəndaş Hərəkatının həbsdə olan üzvü Bayram Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. APA-nın məlumatına görə, hakim Eynulla Vəliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Bayram Məmmədov 10 il müddətinə azadlıqdan məhrum edilib. Qeyd edək ki, dövlət ittihamçısı Bayram Məmmədovun 10 il 6 ay müddətinə azadlıqdan məhrum olunmasını istəmişdi. Bayram Məmmədov Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma) maddəsi ilə ittiham olunur.**

## Sabirabadda gözətçi yanaraq ölüb

**Sabirabad rayonunda 44 yaşlı kişinin yanmış meyiti aşkar edilib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə Qruzma kəndində balıqçılıq təsərrüfatına məxsus gözətçi məntəqəsində baş verib. Orada gözətçi işləyən 1972-ci il təvəllüdlü Hüseynov Tehran Yusif oğlu məntəqədə baş verən yanğın zamanı yanaraq ölüb. Onun tamamilə yanmış meyiti dekabrın 8-də aşkar edilib. Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.**



## Şeyx Şabrandakı 1770 hektar torpaq barədə danışdı

**“Hər bir məscid orada ibadət edən dindarların öz hesablarına yaşamalıdır. Amma bu gün bütün məscidlər fəaliyyət göstərmək üçün dövlətdən yardım istəyir”.**

Bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə QMİ, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Mətbuat Şurasının birgə layihəsi əsasında jurnalistlər üçün təşkil olunan “Milli-mənəvi dəyərlər və kütləvi informasiya vasitələri” adlı iki həftəlik seminarın yekun tədbirində deyib. (“Report”).

QMİ sədri bildirib ki, dində müxtəlif cərəyanların ortaya çıxıb yayılması normal qarşılana bilməz: “Hər başına papaq qoyanın özünü molla kimi təqdim etməsi xalqımızın dindarlarımıza olan inamını azaldıb”.

A. Paşazadə QMİ-nin Şabran rayonunda 1770 hektar torpaq sahəsinin olması haqda deyilənlərə də aydınlıq gətirib: “Bir vaxtlar yazırdılar ki, Qafqaz Müsəlmanları İdarəsi 1770 hektar torpağı dövlət əlindən alıb: "O məlumat düzgün araşdırılmadan yazılmışdı. Çünki həmin torpağı biz könüllü şəkildə Özbəkistanın Fərqanə şəhərindən gələnlərə vermişdik".

## Ukrayna və Gürcüstan vətəndaşları üçün Avropa İttifaqına vizalar ləğv edildi

**Avropa İttifaqı Ukrayna və Gürcüstan vətəndaşları üçün vizanın ləğv olunması haqqında qərar qəbul edib. Bu barədə “Reuters” xəbər verir. Avropa İttifaqı Şurası və Avropa Parlamenti Gürcüstan və Ukraynaya vizasız rejimin hansı halda dayandırılması mexanizmi barədə də razılığa gəlib.**

İki qurum arasında əldə edilən razılığa əsasən, üçüncü ölkə Gürcüstana və Ukraynaya tətbiq edilən vizasız rejimdən sui-istifadə edərsə, o zaman bu mexanizm avtomatik qüvvəyə minəcək.



## Bakıda 5 dərəcə şaxta olacaq

**Bakı və Abşeron yarımadasında dekabrın 9-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Arabir güclü cənub-qərb küləyi əsəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 2-5° şaxta, gündüz 3-5° isti, Bakıda gecə 3-5° şaxta, gündüz 3-5° isti təşkil edəcək.

Atmosfer təzyiqi xeyli aşağı 775 mm civə sütunundan 762 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 85-95 %, gündüz 65-70 % olacaq.

Gecə və səhər yollar buz bağlayacaq.

Dekabrın 9-da Bakı və Abşeron yarımadasında arabir güclü cənub-qərb küləyinin əsəcəyi gözlənilir. Havanın minimal temperaturu 2-5° şaxta təşkil edəcək. Yolların buz bağlama ehtimalı var.

Tibbi-meteoroloji proqnoza əsasən, dekabrın 9-da Abşeron yarımadasında atmosfer təzyiqinin xeyli enməsi fonunda güclü gilavar küləyinin əsməsi meteohəssas insanlar üçün əlverişsizdir. Dekabrın 10-da isə meteoroloji amillərin mülayim tərəddüdü nisbətən əlverişsizdir.

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016

**Milli Məclis 2017-ci ilin büdcə zərfi ilə bağlı müzakirələri dekabrın 8-də spiker Oqtay Əsədovun sədrliyi ilə davam etdirdi.**



# Parlamentdə büdcə müzakirələri bitdi-hökumətə 8 gün vaxt verildi

## Nazirlər Kabineti əlavə və təkliflərə baxıb dekabrın 16-da büdcə qanununu yenidən parlamentə təqdim edəcək

**Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli** dedi ki, Dövlət Sosial Müdafiə Fondunun 2017-ci il üçün büdcəsi 3,4 milyard manat təşkil edir. Bu da ötən ilin müvafiq büdcəsindən təxminən 100 milyon manat çoxdur. "2008-ci ildən başlayan qlobal iqtisadi böhran nə edəsən ki, bizə də gəldi, çıxdı. Amma buna baxmayaraq, Azərbaycanın 2017-ci il üçün dövlət büdcəsində sosial xərclər azaldılmayıb" deyə,komitə sədri əlavə etdi. H.Rəcəbli bildirdi ki, gələn il pensiyaçıların ümumi sayı 1 milyon 320 min nəfər olacaq, bu da cari illə müqayisədə 20 min nəfər çoxdur: "Orta aylıq pensiyanın məbləği 8 faiz artırılaraq 203 manata çatdırılacaq. Vətəndaşların hər birinə işsizliyə görə müavinətin artırılacağı gözlənilir. Bu məbləğ isə 2012-ci ilə nisbətdə 3 dəfə artıq olacaq".

**Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov** dedi ki, rəhbərlik etdiyi qurumun xərclərinin 37,4%-i və ya 1 270 mln. manatı dövlət büdcəsindən birbaşa transfert, 62,6%-i və ya 213 mln. manatı məcburi dövlət sosial sığorta haqları və sair daxilolmalar hesabına formalaşdırılacaq. S.Müslümovun sözlərinə görə, Dövlət Sosial Müdafiə Fondundan əmək pensiyalarının ödənilməsinə gələn il 3 213,82 mln. manat ayrılması nəzərdə tutulub.

**Fazil Mustafa ölkədə işsizliyin sayının kifayət qədər artdığını söylədi:** "Pay torpaqlarına malik vətəndaşların böyük əksəriyyəti öz torpaqlarından istifadə etmirlər. Bunlar da gizli işsizlər ordusunda yer alırlar. Tikinti sektorunda çalışanların da böyük bir hissəsi bu sırada yer almaqdadır. Ödənişsiz məzuniyyətə göndərilənlərin də böyük hissəsi işsiz qalıb". O dedi ki, sahibkarlığın inkişafı zəruridir: "Əks təqdirdə dövlət işsizlər ordusunun problemlərini həll etməyə nail ola bilməyəcək. Bu da ölkəmiz üçün, milli təhlükəsizliyimiz üçün çox ciddi təhlükədir. İşsizlik nəticəsində kriminal sahəyə və narkomaniyaya axın kifayət qədər artıb. Ona görə də orta aylıq əmək haqqı bizi aldatmamalıdır". Deputat ölkədəki neqativ halları da xatırlatdı: "İnhisarçılıq qalmaqdadır, Rəqabət Məcəlləsini hələ də qəbul etməməyimiz, sağlam rəqabətin olmaması problemə çevrilib".

**Qüdrət Həsənquliyev ünvanlı sosial yardımlar barədə bəzi həmkarlarının təkliflərinə etiraz edərək dedi ki, bütün sahələrdə olduğu kimi, bu qurumun işində də hansısa nöqsanlar ola bilər. Ancaq bu, yardımların ləğvi üçün əsas ola bilməz:** "Rabitə Nazirliyinin işində kifayət qədər nöqsanlar aşkarlandı. Onda gəlin, Rabitə Nazirliyinin də maliyyələşməsini dayandıraq. Bu, absurd olardı. Əgər biz ünvanlı sosial yardımı da dayandırsaq, onsuz da çətin vəziyyətdə yaşayan insanların daha da stress altında yaşamasına çalışırıq". **Deputat təklif etdi ki, ehtiyac meyarı minimum yaşayış həddinə çatdırılsın:** "Rayonlarda borc dəftərləri yaranıb, adamlar çalışır ki, gedib heç olmasa borclarını bağlasınlar. Biz insanlarımız üçün stress, qıcıq yaradacaq təkliflərdən uzaq olmalıyıq".

Q.Həsənquliyev bir gün öncəki iclasda "vaxtilə hökumətə tərif deyənlər indi tənqid edirlər" deyən həmkarı **Siyavuş Novruzov**un iradına da ad çəkmədən reaksiya verdi: "Hökuməti tənqid də etmək, işinə tərif də demək olar. Hökumətin hansısa addımları doğru hesab olunursa, o, təqdir olunur. Əksinə, problemlər varsa, təbiin ki, tənqidi yanaşılır. Mən hökumətin hansısa addımını təqdir etmişəmsə, deməli, heç bir tənqid deməməliyəm? Özü də bu fikri səsləndirən bizim dostumuz özü də çıxışında kifayət qədər tənqidi fikirlər söyləyib".

"Müxalifət tənqid etməlidir, hökumət müdafiə etməlidir. Amma tənqidin də forması olmaldır. Hökuməti tənqid edirsiniz, amma Səlim müəllimi müdafiə edirsiniz. Səlim müəllim də hökumətin üzvüdür". **YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov** bu fikirləri Q.Həsənquliyevin çıxışına reaksiyasında söylədi. Ardınca o, digər deputat həmkarlarına da toxundu: "Bəzi həmkarlarımız tənqid edir, buradan çıxanda o nazirə deyir ki, "səni nəzərdə tutmurdum, başqasını nəzərdə tuturdum". Başqa naziri də görəndə eyni sözü deyirlər. Ona görə də tənqid edəndə konkret ünvana sözünüzü deyin, ümumi şəkildə hökumətin adına tənqid söyləməyin. Kim pis işləyirsə, onun adını çəkin, sabah da münasibətinizi ona uyğun qurun".

**Bəxtiyar Əliyev məmurları tənqid etdi:** "Bəzən hökumət qurumları belə bir fikir səsləndirir ki, "iş yerləri var, amma işləmək istəyən yoxdur". Təklif olunan həmin iş yerlərində maaşlar hətta minimum yaşayış həddindən də aşağıdır. Axı bu maaşa dolanmaq olmaz. Ona görə də hökumət bu məsələyə diqqətlə yanaşmalıdır. İş yeri və oradakı əməkhaqqı məsələsinə baxsınlar. İş yerləri bağlananda nədənsə ilk növbədə ixtisara düşənlər əlillər və məcburi köçkünlər olur. Bizə bu barədə şikayət ərizləri daxil olur. Biz isə müvafiq qurumlara bununla bağlı müraciət edəndə deyirlər ki, gələcəkdə bunu nəzərə alacağıq".

**Qənirə Paşayeva** 1-ci qrup əlillərin üzləşdiyi problemlər, çətinliklər barədə danışaraq hökuməti 1-ci qrup əlillərə verilən müavinətlərin və təqaüdün yaşayış minimumundan çox olması üçün artırmağa çağırdı. Q.Paşayeva dedi ki, 1-ci qrup əlillər ağır xəstəliklərdən əziyyət çəkən insanlardır, iş imkanları yoxdur. Q.Paşayeva fiziki imkanları məhdud on səkkiz yaşına çatmayan əlil uşaqların aldığı 67 manat müavinətin də çox aşağı olması barədə danışdı və onun ölkə üzrə ən azı ehtiyac meyarı məbləğinə qaldırılmasının vacibliyini vurğuladı. Xanım deputat yaşa görə müavinətlərin artmasının vacibliyinə də toxundu: "Mən bu günlərdə Tovuzdan səfərdən gəlirəm. Kənddə bir pensiyaçı sakinimiz məndən soruşur ki, Qənirə xanım siz pensiyaçı ananıza kömək edirsinizmi? Deyirəm, bəli, edirəm. Deyir, amma mənim övladım sağ deyil, dünyasını dəyişib və indi onun da balalarına mən dəstək olmalıyam, bəs 67 manat müavinətlə mən nə edim? Ona görə yaşa görə müavinətlərin artmasına da böyük ehtiyac var".

**Deputat Rafael Cəbrayılov** bildirdi ki, əmək pensiyalarının hesablanması ilə bağlı ciddi problemlər var, hətta bu problemlər məhkəmə çəkişmələrinə qədər gedib çıxır. R.Cəbrayılov dedi ki, pensiya alanlarla yerli qurum arasında xoşagəlməz söhbətlər gəzir: "İnsanlar məhkəmə çəkişməsində udduğu pensiya məbləğini almaqda çətinlik çəkir. Ümid edirik ki, nazirlik səviyyəsində bu məsələnin həllinə nail olunacaq".

"Azərbaycan nefti maya dəyərindən 3 dəfə baha satılır. Əgər korrupsiya, monopoliya yığışdırılsa, həmin vəsaitin hesabına problemlərimizin həlli xeyli dərəcədə sürətlənər". Bunu isə **deputat Əli Məsimli** dedi.

**Rəşad Mahmudov** ürək-damar xəstələrinə diqqət çəkdi: "Ötən il ölkəmizdə dünyasını dəyişənlərin 57 faizi ürək-damar xəstəlikləri səbəbindən ani olaraq həyatını itirib". O, dedi ki, əgər 2 saat ərzində həkim müdaxiləsi olsaydı, həmin insanların 10-15 min nəfərini xilas etmək mümkün olardı: "İnfarkt nəticəsində xəstəxanaya düşən insanların 10-15 faizi birinci qrup əlilə dönürlər. 10-15 min insanın bir il içərisində dünyadan köçməməsi, həmçinin əlil olmaması, dövlətə, ailələrə əlavə xərc gətirməməsi üçün imkanlar var. Azərbaycan səhiyyəsində bu problemi aradan qaldırmaq üçün imkanlar var". R.Mahmudov bununla bağlı təkliflərini səsləndirdi.

Spiker dedi ki, Səhiyyə və Maliyyə nazirlikləri ilə danışıb, bu istiqamətdə hansısa addım atmaq olar.

**Zahid Oruc** eyni məkanda yaşamasını doğru saymamaqla yanaşı, onların işlə təmin olunmasını cəmiyyətə inteqrasiya üçün vacib sayıb: "Şəhid ailələrinə 220 manat təqaüd verilir. Qarabağ müharibəsi iştirakçıları ilə bağlı rəqəm 95 mindir. Bu rəqəmin bir hissəsi saxtadır, bu, bəllidir. Hər hansı səbəbdən belə olub. 95 min insan vuruşsaydı, müharibədə uduzmazdıq, bu, dəqiqdir. Amma bu insanların durumu ilə bağlı addımların atılmasına ehtiyac var". Z. Oruc şəhid ailələrinə verilən müavinətlərin ailə üzvləri arasında bölünməsi ilə bağlı da narahatlığını ifadə etdi:

"Şəhid ailələrinə 220 manat müavinət verilir. Bu vəsait qayınata, qayınana və şəhidin həyat yoldaşı arasında bölünür. Bununla da, şəhid ailəsinə düşən vəsait azalır. Təklif edirəm ki, bu vəsait şəhidin həyat yoldaşına verilsin".

2017-ci il üçün Milli Məclisin saxlanma xərcləri 13% artırılır. **Milli Məclisin işlər idarəsinin müdiri Firudin Hacıyev** bunu parlamentin plenar iclasında parlamentin 2017-ci il xərclər smetası layihəsi barədə danışarkən dedi.

F.Hacıyev bildirdi ki, MM və onun aparatının saxlanması ilə bağlı 2017-ci ilin xərclər smetası layihəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun hazırlanıb və xərclər smetası, ştat cədvəlləri, inzibati binaların, mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanan müqavilələr və proqnozlar əsasında tərtib edilib. Onun sözlərinə görə, 2017-ci il dövlət büdcəsində Milli Məclis və onun aparatının saxlanması üçün 23 mln. 89 min manat 714 manat vəsait nəzərdə tutulub ki, bu da 2016-cı il ilə müqayisədə 394 min 500 manat çoxdur. F.Hacıyev əlavə edib ki, xərclər smetasının ümumi dəyərinin 71,5%-ni əmək haqqı fondu və əmək haqqına olan əlavələr təşkil edir: "Bildiyiniz kimi, son illər ölkədə aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycan parlamentinə xarici ölkələrdən gələn qonaqların və Milli Məclisin deputatlarının xaricə səfərlərinin, eləcə də ölkədaxili ezamiyyələrin sayı xeyli artıb. Bununla bağlı, 2017-ci ilin xərclər smetasında ezamiyyə xərcləri köməkçisi üzrə 1 milyon 110 min 900 manat məbləğində vəsait ayrılması nəzərdə tutulub. Bu da keçən illə müqayisədə eynidir".

"Dedin ki, bu il Milli Məclisin büdcəsi 394 min manat artırılır. Camaat da deyəcək ki, Milli Məclisin büdcəsini artırıblar. Bu artım heç sənin işıq puluna çatmayacaq. Yəni artım yoxdur".

Bunu isə **spiker Oqtay Əsədov** F.Hacıyevin dediklərinə reaksiyası zamanı söylədi. O bildirdi ki, həqiqətən keçən illər Milli Məclis çox böyük səylər nəticəsində ezamiyyə xərclərini aşağı salıb: "Ezamiyyə xərcləri bizə çatmırdı. Çünki biz büdcəni keçən ilin noyabr ayında qəbul etmişdik. Noyabr ayından sonra iki dəfə devalvasiya oldu. Bizdə də ən çox dövlət təşkilatları içərisində xaricə ezamiyyətə gedənlər parlament nümayəndə heyətləridir. Bu ildən artıq iki parlament nümayəndə heyətinin fəaliyyətini bərpa etmişik. Avronest Parlament Assambleyası və Avropa Parlamenti ilə də əməkdaşlıq təşkilatları yenidən işə başlayacaq. Baş nazirə də məktub yazmışam, Samir Şərifova da demişəm. Ezamiyyə xərcləri məsələsi qeydə alınmalıdır. Çünki beynəlxalq təşkilatlarda Milli Məclis iştirak etməsə, işlərdə çox böyük axsaqlıq olar. Ona görə də dekabrın 16-da bu məsələlələr hökumətin diqqət mərkəzində olsun".

**Bundan sonra spiker büdcə zərfi ilə bağlı müzakirələri bitirdi və hökumətə vaxt verdi. Nazirlər Kabineti əlavə və təkliflərə baxıb 16 dekabrda büdcə qanununu yenidən parlamentə təqdim edəcək.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016

**2005-ci ildən sonra hakimiyyət xeyli arxayınlaşmışdı. 11 il öncə bu günlər iqtidar parlament seçkilərini səs-küylə, qalmaqalla da olsa birtəhər yola verə bildi. Onu yıxmaq üçün siyasi müxalifətlə və Vaşinqtondan gələn "demokratiya desantları" ilə gizli ittifaq quran nazirləri türməyə doldurub hər kəsin gözünün odunu almağı bacarmışdı.**

Azər AYXAN



# Əli Kərimli Azərbaycanı necə xilas edir... - düstur tapıldı!

**Müxalifətin ayağını meydanlardan kəsib, xeyli zəiflətsə də, narahatlığı qalırdı.** Amma hökumət ümidliydi: 2006-cı ilin yayından BTC neft boru xətti istismara veriləcəkdi və ölkəyə neft pulları - milyardlar axacaqdı. Müasir dövrdə siyasətin pulla yönləndirilməsi, iqtidarların təkcə polis və orduyla yox, həm də pulla qorunduğu bir reallıqdı.

**2008-ci ildə dünyanı silkələyən iqtisadi böhrandan Azərbaycan demək olar ziyansız ötüşdü.** Böhran ölkəni, onun iqtisadiyyatını vurmadı. Əksinə, rəsmi təbliğat "dünya iqtisadi böhranı Azərbaycana heç bir təsir etmədi" tezisi üzərində qurulmuşdu həmin vaxt.

**2007-ci ilin yanvar bahalaşmasını da hakimiyyət rahat və tez adlatdı.** Çünki o dövrlər Azərbaycan büdcəsinə neft satışından hər gün yüz milyonlar daxil olurdu. Ölkə və onun iqtidarı sürətlə varlanırdı. Neft bumu başqa sahələri də canlandırmışdı - tikinti sektoru həmin dövrlər özünün pik nöqtəsinə çatırdı. Bakı yenidən tikilməyə başlayırdı. Azərbaycan neft milyardlarını qəbul etdikcə, onun vətəndaşları da varlanırdı. Ölkə böyük tikinti meydançasına bənzəyirdi. Yüz minlərlə insan təkcə tikinti sektorundan para qazanırdı. Hələ başqa sahələr də vardı ki, xeyli vətəndaş ordan qidalanırdı.

**2015-ci ildən başlayaraq böhran açıq hiss edilməyə başladı.** Dalbadal baş verən devalvasiyalar, bahalaşan qiymətlər, hər gün artan xərclər, milli valyutanın dəyərsizləşməsi fonunda qazın, elektrikin qiymətinin bahalaşması da bir yandan cəmiyyəti şok etdi.

**Noyabrın 28-dən etibarən ölkədə hər kəs növbəti çaşqınlıq yaşayır.** İş o yerə çatıb ki, hətta iqtidar deputatları, ştatlı diferambçılar da duruma açıq etiraz bildirirlər. Milli Məclisdə büdcə müzakirələri zamanı bir sıra parlament üzvlərinin müxalif tonda çıxışları yerli medianın manşetlərini bəzəyir. Hakimiyyətin xeyir-duasıyla mandat alan, əksərinin böyük biznesdə payı olan MM üzvləri indi siyasi müxalifətin boşluğunu müəyyən qədər doldurur.

**Müxalifət isə hakimiyyətin indiki vəziyyətindən sanki yararlanmaq istəmir.** Deyilə bilər ki, yararlanıb nə edəsidi?! Haqlı arqumentdi. Lakin bizim də həmişə təkrarladığımız arqument var: müxalifətin işi, missiyası hakimiyyətə qarşı olmaqdı, iqtidarı xalqa qarşı daha böyük yanlışlardan çəkindirməkdi, hökuməti müəyyən qədər öz iradəsinə tabe etdirməkdi. Fəqət bu bir gerçək ki, bizim ölkənin müxalifəti hakimiyyət üçün heç bir təhlükə törətmir, problem yaratmır. İllərlə aparılan yanlış siyasət, yanlış taktikalar öz nəticəsini verib. Azərbaycan müxalifəti hazırda iqtidarın düşdüyü iqtisadi böhrandan daha dərin olan siyasi böhran yaşayır.

**Əslində bizim müxalifət uzun illər öncədən parçalanmağa, bölünməyə, bir-biriylə didişməyə meyllidi.** Fundamenti necə qoyulubsa, o cür də gedir, heç dəyişməyib. Ona görə də bu siyasi qüvvə 23 ildən çoxdur, mövcud iqtidarı bələdiyyə seçkilərində belə uda, məğlub edə bilmir. Mənəm-mənəmlik, liderlik xəstəliyi, özünü təcrid düşərgənin sonunu gətirib. Müxalifətə liderlik edən şəxslərin gərəksiz iddiaları, bir-birinə düşmən münasibəti düşərgənin hakimiyyətə qarşı təşkilatlanmasına imkan vermir.

**Hökumətin son 10 ildə bu günkü qədər zəif olduğu dövrü kim xatırlayır?** Devalvasiyalar və bahalaşma onun ictimai rəydəki mövqelərini zəiflədib. Hətta hakim partiyanın deputatları, jurnalistləri belə son qiymət artımından açıq şəkildə narazılıq edirlər. Hələ danışmayan, fəqət durumdan, proseslərin gedişatından narazı olan xeyli yüksək rütbəli məmur var. Onların bizneslərinə çox ciddi zərbə dəyib son bahalaşmadan. Başqa səbəblər də var...

**Normalda belə bir vaxtda siyasi müxalifət fəallaşmalı, etiraz aksiyaları keçirməli, tərəfdarlarının sayını çoxaltmalıdır.** Ən azı, buna cəhdlər etməlidir. "Rejimlə mübarizə aparırıq" deyib, zəhlə tökənlərin hətta facebookda narazı status yazdığını belə görmürük. 23 ildir ana müxalifət olmaq üstündə bir-birini qıran Müsavat və AXCP rəhbərliyini ətalət elə basıb ki, hətta qapalı məkanlarda belə tədbir keçirmirlər.

**Bu, iflasın bir rəsmidir.** Azərbaycan müxalifəti siyasi cəhətdən tam bankrot olub. Hakimiyyət dünyadakı qlobal böhrana ağ bayraq qaldırıb, onu Azərbaycana buraxmağa məcbur qaldığı, iqtisadiyyat tənəzzülə getdiyi bir zamanda, onun siyasi opponentləri də "oppalara" gediblər. Bu biabırçılığı hətta AXCP sədri Əli Kərimlinin, Milli Şura sədri Cəmil Həsənlinin sosial şəbəkədəki "fəallığı" da pərdələmək gücündə deyil.

**Əli Kərimlidən söz düşmüşkən...** İki-üç gün öncə onun facebookda bir statusunu oxudum. Azərbaycanın xilas düsturunu tapıb öz aləmində. Bir cocuq qarşokundan muncuq tapıbmış kimi sevincək olub müəllim... Xalqa müraciət edib. Deyib ki, hakimiyyətin yaratdığı böhranlı vəziyyətdən çıxmaq, ölkəni fəlakətdən qurtarmaq üçün siyasi fəallığı artırmaq və... AXCP-yə elliklə üzv olmaq lazımdı...

**Gülüncdü.** Hətta öz üzvlərini belə inventarlaşdırıb, ortaya siyasi fəaliyyət qoya bilməyən, ətrafındakı ən yaxın adamları da dağılan partiya sədri görün nəyə ümid bəsləyir..." Mən oturum evdə, xalq gəlsin mənə qoşulsun, təşkilatıma yazılsın..."

**Sən özün, mənsub olduğun düşərgə aktiv deyilsə, passivlik yaşayırsa, fəlakətin rəsmən özüdürsə, xalq necə siyasi baxımdan fəallaşsın?!** Kimə, hansı gücə arxayın olub, güvənib meydana çıxsın?!

**AXCP-yə üzv olmaq istəyən vətəndaş hara getsin, Kərimlinin facebookda paylaşdığı elektron blankı doldurub hansı ünvana təqdim etsin?** Virtual üzvlükmü? Vay bəə. Adamın hər şeyi virtualdı zatən.

**Fikrimcə, bu müraciətdə məqsəd tamam başqadı əslində.** İndiki böhranlı vəziyyətdə mühacirətə getmək istəyənlərin sayında artımın olması təbiidir. Azərbaycanlılar, xüsusilə də qeyri-siyasi təbəqənin xeyli nümayəndəsi xoşbəxtliyi, rahat həyatı Avropaya, qismən də ABŞ-a mühacirətə getməkdə görür. Belə bir şəraitdə qərargahı olmayan bir partiyadan bilet almaq xeyli çətindi təbii ki. Canlı, birbaşa əlaqə qurmaq xeyli zaman və enerji alır. Üstəlik, qərargahı olan Müsavat Partiyası bu məsələdə Əli Kərimliyə ciddi rəqibdi. Ona görə də Kərimli "dühası" buna da çarə tapıb. Elektron fəaliyyətə keçib, bazarda ciddi paya sahib olmaq istəyir.

Beləliklə, AXCP sədri Əli Kərimli rəhbəri olduğu partiyanın üzvlük biletini mühacirət etmək istəyən vətəndaşımıza satıb, Azərbaycanı xilas edəcək.

**Bu qədər yəni...**



# İqtisadi böhran varlılar üçün böyük təhlükədir - səbəb oğrulardır...

**Son günlər ölkədə oğurluq hallarının sayı artıb. Oğurlar artıq gizlənmədən, günün günorta çağı böyük ticarət mərkəzlərindən oğurluq etməkdən belə çəkinmirlər. Politoloq Arzu Nağıyev özünün facebook səhifəsində Bakıdakı ticarət mərkəzlərindən birində baş vermiş oğurluq səhnəsinin videosunu paylaşıb. A.Nağıyevin " Bu videoda görünən əlində böyük bağlama tutan şəxs Bakıdakı ticarət mərkəzlərindən birində oğurluq edərkən kameralara düşüb...Bəlkə tanıdınız,siz də ehtiyatlı olun..." şərhi ilə paylaşdığı videodan görünür ki, bir şəxs əlində böyük bir bağlamanı qucağında aparır. Həmin bağlamanın içində televizor olduğu ehtimal edilir.**

Bundan başqa Ədliyyə Nazirliyinin əməkdaşının Bakıda yerləşən evindən külli miqdarda pul və qızıl-zinət əşyaları oğurlanıb. Hamiz Hümmət oğlu Məlikzadənin Binəqədi rayonu, Çiçək qəsəbəsi 16/316 nömrəli evə günorta saatlarında girən naməlum şəxsoaradan 30 min manat, 8 min dollar və dəyəri 10 manat olan qızıl-zinət əşyaları aparıb.

Göründüyü kimi, oğurluqlar günün-günorta çağı baş verir və obyekt kimi varlı şəxslərin əmlakları seçilir.

24 il 6 ay polis sistemində çalışmış **keçmiş polis rəisi, istefada olan polis polkovnik-leytenantı Mahmud Hacıyev** deyir ki, oğurluq subyektiv cəhətdən qəsdən törədilən cinayətdir. Onu anlaqlı şəxs qəsdən edir. "Belə bir əməlü imza atmağa hazırlaşan insan düşünür -kimin nəyini oğurlayacaq, hara gedir, niyə görə gedir. Burada elementar məntiq var. Oğru əvvəlcədən hazırlıq görür. Spontan oğurluq çox nadir halda ola bilər. Oğurluğa hazırlaşan şəxs bilir ki, böyük riskə gedir. Oğurluq cinayətdir və gələcəkdə törətdiyi əmələ görə azadlıqdan məhrum oluna bilir. Aydın məsələdir ki, bunu düşünən şəxs çalışacaq ki, əldə etdiyi əmlak riskə dəysin. Yəni kasıbın evini yarmaqdan, kasıbın malını oğurlamaqdan vaz keçəcək. Əldə etdiyi maddiyyatın riskini qarşılamasını, bir növ özünü doğrultmasına çalışacaq.

## Mahmud Hacıyev: "Oğru çalışır ki, varlının evini yarsın ki..."



Mahmud Hacıyev

Odur ki, oğrunun varlının evinə "baş çəkməsi" daha çox hallarda baş verir. Oğurlanacaq obyekt seçiləndə maddiyyat, var-dövlət əsas götürülür" deyə, sabiq rəis bildirib.

**Mahmud Hacıyev ölkədə tüğyan edən iqtisadi böhranın oğurluq hallarınının sayında özünü göstərməsini labüd sayır:** "Bu aksiomadır. Hansı ölkədə iqtisadi-maddi durum çətindirsə, iş yerləri bağlanırsa və işsizlər ordusu yaranırsa, orada oğurluqların sayının artmasında təəccüblü heç nə yoxdur. Azərbaycan manatı 120 faizdən artıq dəyərini itirib. Özəl sektordan və dövlət qurumlarından kütləvi ixtisarlar həyata keçirildi. Ölkədə çox ciddi işsizlik yaranıb. Adamlar ciblərindəki son qəpik-quruşlarını xərcləyib qurtarıblar. Bu yandan kommunal xərclər ortalama 70 faizdən artıq bahalaşıb. Bazar-dükanda qiymətlər od tutub yanır. Sosial durumun son həddə qədər aşağı enməsi tamah motivi ilə törədilən cinayətlərin sayını qaldıracaq. Oğurluq motiv cəhətdən tamah məqsədi ilə törədilən cinayətdir. Bu baxımdan varlı-dövlətli şəxslərin əmlaklarının oğurlanması hallarının sayında artımın qeydə alınması da davam edəcək. Oğru çalışır ki, varlının evini yarsın ki, riskinin qarşılığında çoxlu maddiyyat əldə etsin".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016

# Rusiya nəşrindən sensasion iddia




**Qarabağ mövzusu son günlər təzədən regional siyasi gündəmin ön sıralarına çıxmaqdadır. Məsələyə hazırda aktuallıq və ağırlıq verən isə konflikt ətrafında Türkiyə-Rusiya, Türkiyə-Azərbaycan və Azərbaycan-Rusiya münasibətləri kontekstində nəzərə çarpan yeni gəlişmələr, cərəyan edən proseslərdir.**

# Türkiyə və Rusiya anlaşıb - Hələb Qarabağa dəyişdirilir...

## Moskva-Bakı-Ankara-İrəvan dördlü formatı yaradılır?; Mövlud Çavuşoğlunun Bakı, baş nazir Binəli Yıdırımın isə Moskva səfərlərinin detalları açılır; ekspert: "Ankara Moskvanı inandırmağa nail olacaq ki..."

**Siyasi təhlilçilər Bakı-Ankara-Moskva "üçbucağı"nda həm də Dağlıq Qarabağ mövzusundan dolayı baş verənləri nəzərdən qaçırmırlar. Söhbət öncəliklə Rusiya xarici işlər naziri Sergey Lavrovun son Türkiyə səfəri, bu səfərdən dərhal sonra onun türkiyəli həmkarı Mövlud Çavuşoğlunun Bakı, onun ardınca isə baş nazir Binəli Yıldırımın 3 günlük Moskva səfərlərinə önəm verirlər.**

***

Bu xüsusda Rusiyanın "Rosbalt" nəşrinin analitiki İrina Corbenadzenin "Qarabağı Hələbə dəyişdiririk?" başlıqlı məqaləsi diqqət çəkir. Təhlilçinin sözlərinə görə, son günlər Rusiya və Türkiyənin iştirakı ilə labirintli geosiyasi proseslər müşahidə edilməkdədir. Onun fikrincə, M. Çavuşoğlunun axırıncı Bakı səfərinə heç bir diqqət ayırmamaq da olardı, əgər aşağıdakı üç məqam olmasaydı: "1. Səfər prezident Ərdoğanın Bəşər Əsədlə bağlı verdiyi son xoşagəlməz açıqlamaya dair rusiyalı həmkarı ilə izahatından sonraya təsadüf edir; 2. Sergey Lavrovla görüşdən dərhal sonra baş tutub; 3. Ərdoğanın "Türk axını" ilə bağlı qanunu imzalaması ərəfəsinə düşüb".

Məqalədə daha sonra deyilir: "Rəsmi məlumatlara görə, Çavuşoğlu azərbaycanlı həmkarı Elmar Məmmədyarovla Qarabağ nizamlaması da daxil, bütövlükdə regiondakı situasiyanı müzakirə ediblər. Azərbaycanlı nazir həmçinin iki ölkə arasında iqtisadi əməkdaşlığın, o sırada TANAP qaz kəməri layihəsi çərçivəsində əməkdaşlığın müzakirə predmeti olduğunu deyib. Rəsmi informasiyalar quru xarakter daşıyır. Lakin ekspertlərin olduqca maraqlı və detallı yanaşmaları var. Onların qənaətincə, Türkiyə XİN başçısı Bakıya heç də "əliboş" gəlməyib, əksinə "tam əli dolu" səfər edib.

O sırada, **politoloq Engin Özer** Ankaranın Qarabağ nizamlanmasında köməyi kontekstində deyib: "Əhməd Davudoğlunun baş nazir postundan istefa verməsindən dərhal sonra Türkiyə tərəfi "Hələb müqaviməti"ni dəstəkləməyi dayandırdı. Hamıya bəllidir ki, Hələb yaxın zamanlarda Əsəd qüvvələrinin nəzarəti altına keçəcək. Və zənnimcə, bununla bağlı da Ankara və Moskva arasında hansısa anlaşma olacaq. Daha dəqiqi, Türkiyə Əsədin Hələbə nəzarət eləməsinə mane olmayacaq, Rusiya isə öz növbəsində Qarabağ probleminin Bakının xeyrinə həllinə yardımçı olacaq".

**Məqalə müəllifi daha sonra Rusiyadakı Müasir Türkiyəni Öyrənmə Mərkəzinin rəhbəri Yuri Mavaşevin fikirlərinə yer ayırıb. O da Çavuşoğlunun Bakıya əliboş gəlmədiyini söyləyib:** "Türkiyə və Azərbaycan XİN başçıları arasında budəfəki Qarabağ müzakirələri xüsusi məna kəsb edən bir xarakterdə olub. O, Lavrovla razılaşdırılmış bəzi təklifləri Bakıya izah edib". Mavaşev Moskvanın Qarabağ nizamlanması ilə bağlı təşəbbüsünün Ankara tərəfindən dəstəklənməsini "ümidverici" adlandırıb: "Halbuki əvvəllər Türkiyə ATƏT-in Minsk Qrupuna və Rusiyaya sistematik şəkildə etirazlar bildirirdi. İndi baş verənlər isə mənim fikrincə, hansısa "paket layihə"nin mövcudluğuna dəlalət edir - hansı layihədə ki, konfliktin həlli türk-erməni əlaqələrinin normallaşması ilə eyni kompleksdə nəzərdə tutulur. Belə görünür, yaxın perspektivdə biz Moskva-Bakı- Ankara-İrəvan formatının şahidi ola bilərik. Sadə dildə situasiyanı izah etsəm, indilikdə "başa baş" prinsipindən çıxış edilir: Türkiyə indi prinsipcə küncə sıxılıb. Ona Azərbaycanın və Rusiyanın köməyi lazımdır. Azərbaycan öz ərazisində bütün Gülənçiləri sıradan çıxarmaqla ona bu köməyi göstərə bilər. Bundan əlavə, Türkiyəyə TANAP layihəsinin tam həcmdə reallaşması gərəkdir. Bu, Ankaraya imkan verəcək ki, faktiki, onunla əlaqələri qırmış Avropa Birliyini cilovda saxlasın. Yəni söhbət təkcə Ərdoğanın Türkiyəni Azərbaycan və Rusiya qazı ("Türk axını"-red.) hesabına qaz xabına çevirmək yönündə ambisiyalarından yox, həm də Avropaya təsir edərək, onu ABŞ-dan ayırmaq planından gedir. Azərbaycan isə öz növbəsində Rusiya və Türkiyə iki məsələdə - Qərbin sevimli məşğuliyyəti olan "rəngli inqilab"lardan yayınmaq və Qarabağ nizamlaması, bütövlükdə təhlükəsizliyin təmin olunması üçün lazımdır".

**"Rosbalt"dakı məqalənin sonunda bir daha Türkiyə ilə Rusiya arasında mümkün Qarabağ anlaşmasına toxunulur:** "Əgər Moskva və Ankaranın Qarabağ və Hələbə "əl qatması" haqda informasiya doğrudursa, o zaman bu sövdələşməni böyük işarəli saymaq olar. Düzdür, Qarabağla bağlı bir sürü problemlər ortaya çıxacaq. Ancaq görünür ki, Türkiyə nizamlamada öz yerini ciddi şəkildə möhkəmlədib. İndi artıq o, birinci yerdə olmasa da - birinci yer Rusiyaya ayrılıb - axırıncı yerdə də deyil. Əgər Qarabağ ixtilafı hər halda Bakının xeyrinə çözülərsə (bu haqda politoloqlar çoxdan danışır, amma Hələblə əlaqədə yox), bu, Ərdoğanın Güney Qafqazsa kiçik bir qələbəsi demək olacaq - əgər bunun qarşılığında Moskva Türkiyədən başqa əlavə məsələlərdə "anlaşma" tələb eləməzsə. Rusiyanın isə Cənubi Qafqaz da daxil (Azərbaycan kontekstində bu xüsusilə mühümdür) postsovet məkanında və Yaxın Şərqdə qələbəsi qat-qat böyük olacaq".

***

**Azərbaycanlı siyasi şərhçi Elxan Şahinoğlu**nun da bu mövzuda maraqlı şərhi var. O da bu qənaətdədir ki, Çavuşoğlu son Bakı səfəri zamanı Lavrovla Qarabağ problemi ətrafında apardığı danışıqların detallarını rəsmi Bakıya çatdırıb: "Ankara ilə Moskva arasında danışıqlar intensivləşib. Məqsəd də Rusiyanın münaqişənin həlli ilə bağlı Ermənistan hakimiyyətinə təsir etməsidir. İlk növbədə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır ki, sülh prosesinə start verilsin. Lavrovun Çavuşoğlunun təkliflərinə cavabı hələlik bəlli deyil. Ancaq o da məlumdur ki, Ankara ilə münasibətlərini normallaşdıran Moskva Türkiyənin bu fəallığına və Moskva Türkiyə-Rusiya-Azərbaycan formatının yaradılmasına etiraz etmir".

**Politoloq hesab edir ki, hadisələrin bu yöndə inkişafı Ermənistan hakimiyyətini narahat edir:** "Ermənistan tamamilə Rusiyadan asılı vəziyyətə düşüb, ordusu və iqtisadiyyatı Rusiyanın nəzarəti altındadır. Rusiya, hələ ki Ermənistan hakimiyyətini müdafiə edir və konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə maraq göstərmir. Ancaq bir gün Moskvanın mövqeyi dəyişərsə və Kreml Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə Ermənistan hakimiyyətinə təzyiq edərsə, bu halda Sərkisyan nə edəcək? Rəsmi İrəvan Moskvaya etiraz edəcəkmi?... Erməni diasporu da düşünür ki, yaxın zamanda Moskva Ankara ilə razılaşaraq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll edəcək. Rəsmi Bakı Moskvanın Ermənistan hakimiyyətinə təsir edərək Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasını sürətləndirəcəyinə çox ümidlidir. Hələ ki bu, baş verməsə də, inanırıq ki, Ankara Moskvanı buna inandırmağa nail olacaq.

Həm Bakı, həm də Ankara Rusiyaya təklif ediblər ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli halında bölgədə regional əməkdaşlığı genişləndirmək mümkün olacaq. Bu regional əməkdaşlıq isə Rusiyanın maraqlarına cavab verəcək şəkildə inkişaf edəcək. Ancaq hələ ki nə Bakı, nə də Ankara Moskvadan tutarlı cavab ala bilməyib. Ermənistanı daha çox silahlandırmasına baxmayaraq, Rusiyanın Cənubi Qafqaz siyasətini korrektə edəcəyi istisna deyil".

❑ **Analitik xidmət**



# Kerri: "Qarabağ münaqişəsi Avropanın təhlükəsizliyinə təhdiddir"

**"Azərbaycan və Ermənistan arasındakı həlli uzanan münaqişə Avropanın təhlükəsizliyini təhdid altına qoyur". APA-nın məlumatına görə, bu sözləri ABŞ dövlət katibi Con Kerri Xarici İşlər Nazirləri Şurasının Hamburqda keçirilən 23-cü iclasında deyib.**

O, Avropanın üzləşdiyi təhlükənin tək Ukraynada olmadığını deyərək, bu sırada Dağlıq Qarabağ, Moldova və Gürcüstandakı münaqişələri də qeyd edib.

# Lavrov da münaqişənin həllindən danışdı



**"Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, digər çətin problemlərin həllində daha əvvəl əldə olunmuş razılıqlara sadiqlik əsas rol oynayır".**

APA-nın məlumatına görə, bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov Hamburqda keçirilən ATƏT Xarici İşlər Nazirləri Şurasının 23-cü iclasında deyib.

O bildirib ki, münaqişələr bütün tərəflərin maraqlarının balansının qorunması şərti ilə mövcud formatlar çərçivəsində həll olunmalıdır.

# Sərkisyan Qarabağdadır



**Serj Sarkisyan işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfərə yola düşüb Ermənistan prezidenti Serj Sarkisyan Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfərə yola düşüb. "Hrapark" qəzeti yazır ki, səfər 3 gün davam edəcək.**

Son illər Ermənistan prezidenti Dağlıq Qarabağa tez-tez belə səfərlər edir.

Xəbərdə bildirilib ki, səfərdə məqsəd işğalçı "ordu"nun vəziyyətini yoxlamaqdır.

# Ermənistan müdafiə nazirinin iki mühafizəçisi qəzada öldü

**Ermənistanın Sünik vilayətində (işğal altındakı Kəlbəcər rayonu ilə həmsərhəd) dekabrın 8-də Müdafiə Nazirliyinin mərkəzi aparatının iki əməkdaşı qəzada ölüb.**

Virtualaz.org erməni mənbələrinə istinadən xəbər verir ki, Ermənistan Müdafiə Nazirliyinin nömrə nişanını daşıyan "Lexus" avtomobili yolun hərəkət hissəsindən çıxaraq uçuruma yuvarlanıb. Nəticədə sürücü və sərnişin ölüb. shamshyan.com saytı ölənlərin müdafiə naziri Viqen Sərkisyanın mühafizə xidmətinin əməkdaşları olduğunu bildirir. Onların rütbələri göstərilmir.

Məlumata görə qəzaya uğrayan "Lexus"un nömrə nişanı "0001" -dir və qəza Yerevan-Mehri avtomobil yolunun 231-ci kilometrliyində baş verib. Avtomobil yoldan çıxaraq 40 metrlik uçuruma düşüb. Ölənlərdən biri müdafiə nazirinin təhlükəsizlik xidmətinin rəisi Armen Simonyandır. Hadisə yerinə çoxsaylı yol patrul polisi avtomobilləri və əməliyyat qrupu göndərilib.

# Qarabağda erməni əsgər öldürülüb

**Dekabrın 8-nə keçən gecə Dağlıq Qarabağda işğalçı erməni ordusunun 20 yaşlı əsgəri Albert Postolokyan aldığı güllə yarasından ölüb.**

Virtualaz.org "Ermənistan xəbərləri"nə istinadən xəbər verir ki, bu məlumatı Ermənistanın Müdafiə Nazirliyi verib.

Hadisə gecə təxminən saat 02:45-də cəbhənin Ağdərə istiqamətində baş verib. Hadisənin baş vermə səbəbləri araşdırılır.

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016

**Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin(DTX) reket jurnalistlərə qarşı keçirdiyi əməliyyatlar son günlər mediada müzakirə mövzusudur. Redaktorların başlanmış bu prosesdən gözləntiləri olduqca böyükdür.**

# Redaktorlardan reket jurnalistikaya qarşı mübarizəyə tam dəstək

**“Gündəlik Teleqraf” Media Holdinqinin rəhbəri Aynur Camalqızı** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, son günlər bu yöndə atılan addımların ədalətli olduğunu düşünür. Onun sözlərinə görə, bu, illərdir bildiyimiz həqiqətlərdir: “Azərbaycanda mediaya az-çox bələd olan hər kəs reketçiliklə məşğul olanların kimliyini bilir. O baxımdan hətta hesab edirəm ki, həbslər gecikmiş qərardır. Onların az qala 8-9 ildir ki, jurnalistikanın adını biabır etmələrinə imkan verməmək lazım idi. Çünki dəfələrlə reketçi media quruluşlarının adı açıqlanıb, Mətbuat Şurasında "qara siyahı"ya salınıb. Onların bir ortabab media orqanının demək olar, 1 illik büdcəsindən da artıq qiyməti olan bahalı avtomobillər sürməsi necə qara işlərlə məşğul olduqlarını göstərirdi. Azərbaycan mediasının adına qara ləkə idilər".

**Müsahibimizin dediyinə görə, reket jurnalistikası bütövlükdə Azərbaycan jurnalistikasını hörmətdən, nüfuzdan salırdı:** “O baxımdan düşünürəm ki, təmizlənmənin ümumilikdə hamımıza xeyri var. Və eyni zamanda düşünürəm ki, bu proses hələ davam etməlidir. Çünki reketçi jurnalistikanın bütün qalıqları təmizlənməlidir. Və bir vacib məsələ də odur ki, reketçi jurnalistlər yalnız reketçi mediada deyil. Çox təəssüf ki, müxalifət mediası, radikal media kimi tanınan bəzi media quruluşlarının da fəaliyyəti indi həbs olunan "jurnalistlərin" fəaliyyətindən heç də fərqlənmir. Məmurların şantaj olunaraq onlardan pul qoparılması faktları çoxlarına sirr deyil. Şantaj xarakterli yazıların bir müddətdən, hətta bəzən bir neçə saatdan sonra saytlardan “yoxa çıxması” bizim gözmüzün önündə baş verir və nələrin müqabilində edildiyiniz də gözəl bilirik".

**Müsahibimiz bu kateqoriyaya daxil olan sayt rəhbərlərinə də mesaj yolladı:** “Yeni sözümün canı odur ki, mən müxalifətçiyəm, qəhrəmanam, mübarizəm, hakimiyyəti ən sərt formada tənqid edirəm deyə, atlanıb düşməsinlər. Ortabab bir məmurun qabağında necə yerlərindən sındıqlarını bilirik. Onların media yaradıcılığı da siyasi fəaliyyətləri kimi saxtakarlığın və yalanın üzərindədir. Və bir gün o maskaları da yırtılacaq”.



**Aynur Camalqızı:** “Onların ortabab media orqanının 1 illik büdcəsindən da artıq qiyməti olan bahalı avtomobillər sürməsi necə qara işlərlə məşğul olduqlarını göstərirdi”



**Vüqar Rəhimzadə:** “Bu insanların mətbuatdan, jurnalistikadan anlayışları belə yoxdur”

“Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin ”reket jurnalistlər”ə qarşı keçirdiyi əməliyyatlar jurnalistikanın saflaşmasına xidmət edir". Bunu isə “Report”a açıqlamasında **Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə** deyib. O bildirib ki, DTX-nin həyata keçirdiyi bu iş jurnalistikanın saflaşmasına, bəzi şəxslərin “jurnalist” fəaliyyəti adı altında insanlara qarşı törətdikləri mənəvi terrorun aradan qaldırılmasına, cəmiyyətin inkişafına xidmət edir: “Bu tədbirlərin keçirilməsi alqışlanmalıdır. Hər bir sağlam düşüncəli insan bu tipli tədbirləri dəstəkləməlidir. Azərbaycanda jurnalistika ilə bağlı yaradılmış şəraitdən bəzən sui-istifadə halları da olur. Ümumiyyətlə, jurnalistikaya aidiyyatı olmayan insanların qəzet təsis edərək "fəaliyyət" göstərməsi, insanların şəxsi həyatlarına müdaxilə, təhqir, böhtan atması doğru deyil. “Reket” qəzetlərin əməkdaşları böyük təşkilat rəhbərlərinə qarşı mənəvi terror həyata keçirirlər. Bu adamlar jurnalistikaya inamsızlıq yaradırlar, xələl gətirirlər. Mətbuat Şurası bu işlərin qarşısını almağa çalışır. Bu, ictimai qınaq səviyyəsində olsa da, müəyyən tədbirlər görürük".

**R.Rəhimzadə vurğulayıb ki, Azərbaycanda hələ də “reket jurnalistika” ilə məşğul olan şəxslər var:** “Mətbuat Şurasının araşdırmalarından bəlli olur ki, orta təhsili olmayan bəzi şəxslər media qurumları yaradıblar. Bu insanların mətbuatdan, jurnalistikadan anlayışları belə, yoxdur. Onlar qəzet təsis etməklə çirkin niyyətlərini həyata keçirirlər. İctimai fikirə təsir etməyən media qurumları mövcuddur ki, fərdlərə qarşı böhtan xarakterli yazıları dərc edirlər, onların ünvanlarına göndərirlər. Ona görə də həmin şəxslərə qarşı tədbirlər davam etdirilməlidir”.

❑ **Sevinc TELMANQIZI**

# Eldar Mahmudovun daha bir dəstəsinin mühakiməsi başlayır

## Sabiq nazirin ətrafındakılar azadlıqda ikən özünün həbsi mümkün olacaqmı?

**1 il 2 ay əvvəl Milli Təhlükəsizlik Nazirliyində(MTN) həyata keçirilən xüsusi əməliyyat Eldar Mahmudovun nazir kreslosu ilə vidalaşmasına, ətrafının həbsinə yol açdı. Bu gün artıq ləğv olunmuş nazirliyin mərkəz, idarə və şöbələrinin əməkdaşlarının çox az bir qismi həbs olunub, istintaqa cəlb ediliblər. MTN isə bir qurum olaraq ləğv olunub.**

Ləğv olunmuş nazirliyin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov və onun idarəsinin 3 əməkdaşı artıq məhkəmə qarşısına çıxarılıb. Hər gün qapalı şəraitdə keçirilən məhkəmədə üzə çıxan faktlar istintaqçılara Eldar Mahmudovun yaxasından bərk-bərk yapışmaq üçün çox ciddi əsaslar verir. Mahmudovun generalları Sübahir Qurbanov, Teymur Quliyev və Natəvan Mürvətovanın barəsində olan cinayət işinin istintaqı da yekunlaşıb. Hazırda tərəflər cinayət işinin materialları ilə tanış olurlar. Təxminən 1 aya yaxındır davam edən tanışolma mərhələsinin uzanmasının səbəbi isə Sübahir Qurbanovun xəstəliyi imiş.

S.Qurbanovun həbsindən sonra bir neçə dəfə vəkilləri və özü tərəfindən səhhətinin yaxşı olmadığı, xəstə olduğu məsələsini qaldırıb və prokurorluqdan müalicə olunmasını istəyib.

Yaxın günlərdə o da daxil olmaqla 3-ü general olmaqla daha 10 MTN-çinin cinayət işi baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndəriləcək. Həmin dəstəyə Teymur Quliyevin işçisi olmuş Fərhad Atayev, Sübahir Qurbanovun işçiləri, Baş İdarənin 1-ci idarəsinin rəisi Fizuli Əliyev və əməkdaş Natiq Alıyev də daxildir.

Sübahir Qurbanovun hansı əməllərin sahibi olmasını aydınlaşdırmaq üçün Dövlət Bayraq Meydanının sabiq sədri Rəşad Məmmədovun işinə göz atmaq kifayətdir.

Adamı əmlaklarının ələ keçirilməsi üçün həbs ediblər. Başına olmazın oyun açıblar. MTN-dəki məlum əməliyyatdan sonra azadlığa buraxılanlardan biri də məhz Rəşad Məmmədov oldu. Onu məhkəmə zalından azadlığa buraxdılar. Bu S.Qurbanovun üzdə olan, geniş ictimaiyyətə bəlli olan əməllərindən biridir. S.Qurbanov bu gün ittihamları qəbul etmir. Suçu üstündən atır. Deyir ki, o, sadəcə əmrlərin icraçısı olub. Lap yaxşı. Bəs o əmrləri kim verib? Bu adamların hər kəlməsi, ifadəsi Eldar Mahmudovun suçunu ortaya qoyur. Onlar əmrləri “yuxarıdan” aldıqlarını deyirlər. “Yuxarıda” isə oturan məhz Eldar Mahmudov olub. Əgər Mahmudov ona tabe olan generallara nəzarət edə bilməyibsə və onlar bir-birindən ağır cinayətlərə imza atıblarsa, yenə də günah Eldar Mahmudovdadır.



Eldar Mahmudov

Xatırladaq ki, general-mayor Teymur Quliyev ləğv edilmiş MTN-nin Monitorinq Mərkəzinin rəhbəri, general-mayor Sübahir Qurbanov nazirliyin IV Baş İdarəsinin rəisi, general-mayor Natəvan Mürvətova isə nazirliyin Əməliyyat-Texniki İdarəsinin rəisi olub. İş üzrə 130 epizod araşdırılır. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınıb. MTN-dən qovulanların isə sayı-hesabı yoxdur.

Son 10 ildə MTN-ə rəhbərlik edən, orada baş verən ağır cinayətlərə bu və ya digər formada aidiyyəti olan sabiq nazirin həbs olunmaması bir çox suallar doğurur. İstintaqın ilk dövrlərində belə ehtimallar vardı ki, E.Mahmudovun həbsinin yubanması istintaqın onun əleyhinə materiallar toplaması ilə əlaqədardır. Artıq bu ehtimallar sabun köpüyü kimi əriyib gedib. Nəinki Eldar Mahmudov, ona xüsusi yaxınlığı ilə seçilən, MTN-ə onun tərəfindən gətirilən və nazir müavini vəzifəsinə qədər irəli çəkilən Hilal Əsədov da bu gün azadlıqdadır. Sahibkarlara qan udduranların sırasında ilk cərgədə qərarlaşan Baş İstintaq İdarəsinin rəhbəri Mövlam Şıxəliyev də həmçinin... O, Novxanıdakı pəncərələri dənizə açılan imarətində istirahət edir. Halbuki M.Şıxəliyevin adı MTN-də sahibkarlara qarşı həyata keçirilən terror əməliyyatının aktiv iştirakçısı kimi dəfələrlə çəkilib. Bu 2 şəxs vaxtilə DİN sistemində, E.Mahmudovun rəhbərliyi altında çalışıblar. 2004-cü ildə E.Mahmudov nazir təyin ediləndən sonra hər iki şəxsi MTN-ə işə götürüb, yüksək vəzifələr verib. Bu baxımdan sabiq nazirə yaxın 2 kadrın azadlıqda qalmaları da bu günün reallıqlarındandır. M.Şıxəliyev İstintaq Baş İdarəsinin rəisi olduğu dövrdə onun tabeliyində olan istintaq təcridxanasında işgəncələrə dözməyib ölən insanlar ölüb. Səid Dadaşbəylinin işində həbs olunan və 2007-ci ildə MTN təcridxanasında işgəncələrə dözməyib ölən Emin Məmmədovun ölüm işi buna sübutdur. Bundan əlavə, işgəncədən ölən şəxslərin ailə üzvləri o dərəcədə şantaj olunublar ki, qorxudan heç kəslə ünsiyyət qurmaq istəməyiblər. Qurumda saysız-hesabsız cinayətlər törədilib, bu cinayətlər bu gün ortalıqdadır. Amma buna baxmayaraq, general M.Şıxəliyevin adına istintaq materiallarında rast gəlinmir.

Qeyd edək ki, çoxsaylı şikayətlər arasında ən çox MTN-də istintaqı aparılan şəxslər, bu qurum tərəfindən hədə-qorxu ilə var-dövlətlərini itirən iş adamlarının adları var. Bu şəxslərin illərlə susmasına səbəb MTN şefi Eldar Mahmudovun rəhbərlik etdiyi cinayətkar qrupun əməlləri olub. MTN-in vəzifəli şəxsləri tərəfindən hədələnənlər arasında qanunsuz olaraq istintaqları aparılan çoxsaylı məhkumlar var. Bir müddət əvvəl dələduzluqda ittiham edilən, hazırda həbsdə olan iş adamı Rauf Kərimov Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyev və onun tərəfdarları tərəfindən həbs olunması barədə ölkə başçısına müraciət ünvanlayıb. Müraciətdə şər-böhtanla hədələndiyini, Mövlan Şıxəliyev tərəfindən şantaj olunduğunu, həmin idarənin şöbə rəisi polkovnik Vüsal Ələkbərovun ondan 1 milyon manat aldığı bildirilib. R.Kərimovun dediyinə görə, keçmiş MTN şefi ona məxsus “Çinar” kafesini hədə-qorxu gəlməklə şəxsən özü əlindən alıb.

**Nəticə isə yoxdur. Bu adamların azadlıqda qaldıqları bir vaxtda Eldar Mahmudovun həbs ediləcəyini gözləmək sadəlöhvlükdür.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016



# ABŞ-ın demokratiya üçün ayırdığı milyonları-Bakıdan narahat reaksiyalar

## Elxan Şahinoğlu: “Hansı Qərbmeylli QHT qrant almağa risk edər?”
## Mirvari Qəhrəmanlı: “Qanunda dəyişiklik olmasa xeyri yoxdur”

**ABŞ Dövlət Departamentinin Azərbaycana ayırdığı maliyyə yardımının məbləğini bu ilə nisbətən 3 milyon artırması geniş müzakirələr doğurub. Buna səbəb Dövlət Departamentinin yardım sənədində qeyd etdikləridir.**

ABŞ-ın rəsmi qurumu açıq şəkildə bəyan edib ki, maliyyə dəstəyinin artırılmasına səbəb Azərbaycanı Rusiyanın təzyiq və təsirlərinə qarşı müqavimətini gücləndirməkdir. Bu nüans ölkə daxilində müzakirəyə səbəb olub. Ekspertlər qeyd edir ki, dünyanın əsas gücü heç bir vəchlə Azərbaycanın Rusiyanın təsir dairəsinə düşməsini istəmir və rəsmi Bakının qərbyönlü siyasət yürütməsində maraqlı görünür.

Departamentinin bəyanatında diqqətçəkən məqamlardan biri də Amerikanın yeni hakimiyyətə gəlmiş Donald Tramp dövründə də ənənəvi siyasəti yürüdəcəyinin anonsunun verilməsidir. Belə ki, Azərbaycan üçün Konqresə göndərilən yardım sorğusuna dair izahedici sənəddə deyilir ki, Birləşmiş Ştatlar Bakıya münasibətdə demokratikləşmə və insan haqları, təhlükəsizlik və iqtisadi liberallaşma, ticarətin inkişafı və Avroatlantika strukturları ilə əməkdaşlığın gücləndirilməsi prioritetlərindən ibarət “kompleks yanaşma” tətbiq edir.

Göründüyü kimi, əvvəlki hakimiyyətlərin dönəmində olduğu kimi Amerika digər dövlətlərə münasibətdə demokratiya və insan haqları məsələsini yenə də öndə tutacaq. Sənədə əsasən ABŞ-ın Azərbaycana ayıracağı maliyyə yardımları əsasən vətəndaş cəmiyyətinə, QHT-lərə, jurnalistlərin hüquqlarının müdafiəsinə və digər bu kimi məqsədlərə xərclənəcək. ABŞ gələn il də Azərbaycanda “qərbyönümlü” QHT-ləri, KİV-ləri, başqa sözlə, “beşinci kolon”un elementlərini maliyyələşdirməkdə davam edəcək.

Son illərdə QHT-lərə qarşı olan təzyiqlərdən sonra maliyyə böhranı yaşayan vətəndaş cəmiyyəti institutlarının bu yardımla dirçələ biləcəyi qeyd olunur. Azərbaycan hakimiyyətinin ABŞ-ın yeni iqtidarı ilə münasibətləri korlamamaq üçün vətəndaş cəmiyyətinə olan təzyiqləri azaldacağı da iddialar arasındadır.

Lakin **“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu** ayrılan məbləğin yüksək olmadığını deyir: “Həmin dövlət Rusiya ilə əlaqələrdən Amerikanın xeyrinə imtina etmək istəyirmi? Bu sual çox aktualdır. Çünki Rusiya bizə qonşu dövlətdir. Bilirik ki, Rusiya işğalçıya dəstək verir. Amma bu dövlətdən ehtiyat edirik. Ona görə də heç kim Rusiyanı qıcıqlandırmaq istəmir. Türkiyə kimi böyük dövlət belə təyyarənin vurulmasına görə Rusiyadan üzr istədi. Çünki Rusiya ilə əməkdaşlıqdan qopmaq istəmirdi. Bu Dövlət Departamenti müvəqqətidir. Yeni prezident gəlir və o açıq şəkildə deyib ki, üçüncü dövlətin daxili işlərinə qarışmayacaq, heç bir ölkədə rejimləri dəyişməyəcək. Bu o deməkdir ki, yeni Dövlət Departamenti üçüncü dövlətin daxili işlərinə qarışmayacaq. Rusiyanın təsirlərinin digər ölkələrdə azaldılması da hədəf kimi qarşıya qoyulmayacaq. Yəni hədəflər dəyişəcək. Buna görə də kiçik dövlətlər Amerikanın ianələrinə görə Rusiya ilə münasibətləri gərginləşdirməyəcəklər”.

**Siyasi şərhçi demokratiya və insan haqları məsələsinin önə çəkilməsinə də münasibət bildirdi:** “Hər il bunu deyirlər. Sabiq dövlət katibi Kondaliza Rays dedi ki, neft qurtardı və bir daha buna görə demokratiya, insan haqlarını qurban verməyəcəyik. Amma bu söz deyildiyi kimi də qaldı. Amerikanın bu ad altında Yaxın Şərqdə keçirdiyi uğursuz əməliyyatlar da göz önündədir. Qaş düzəltmək əvəzinə gözü vurub çıxardılar. İraq və Liviyada hakimiyyətlər yıxdılar, yerində xaos yarandı. Ona görə Amerikanın bu planlarından kiçik dövlətlər ehtiyatlanmağa başlayıblar. İnsan haqları və demokratiya deyiləndə bunu ABŞ-ın dövlətlərin daxili işlərinə qarışması kimi qəbul edirlər. Kiçik dövlətlər istəyirlər ki, Amerika ilə əməkdaşlıq qursunlar, lakin ABŞ-ın da onların daxili işlərinə qarışmasını istəmirlər. Düzdür, demokratiya və insan haqları məsələləri hər hansı bir dövlətin daxili işi sayılmır. Trampın özü də səhvləri etiraf deyir və deyirsə ki, ABŞ başqa dövlətlərin daxili işlərinə qarışmamalıdır, demək kimsə artıq demokratiya və insan haqları ilə bağlı deyilənlərə inanmır. Tramp Rusiya ilə əlaqələr quracağını dedi və artıq buna əməl edir. Gələn xəbərlərə görə, müşavirlərindən birini Rusiyaya göndərib. Məqsəd də terrorizmə qarşı birgə mübarizə aparmaqdır. Əgər bunlar olacaqsa, Tramp üçün demokratiya və insan haqları məsələsi arxa plana keçəcək”.

E.Şahinoğlu QHT-lərə ayrılan yardımlardan da söz açdı: “Amerikanın Azərbaycandakı fondlarının tam əksəriyyəti bağlanıb. Qrant verilmə halları təhlükəli vəziyyətə çatıb. Hansı Qərbmeylli QHT qrant almağa risk edər? Sadəcə Azərbaycan və ABŞ arasında əlaqələr tam yaxınlaşsa, bağlanan fondlar açıla bilər. İmkan vermək lazımdır ki, xarici fondlar ölkəmizdə fəaliyyət göstərsinlər. Çünki onlar Gürcüstan və Ermənistanda rahat şəkildə fəaliyyət göstərirlər, milyonlarla layihələrə pul yatırırlar”.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı ayrılan yardımın böhran keçirən QHT sektoruna təsir etməyəcəyini düşünür:** “Qanunda dəyişiklik olmasa xeyri yoxdur. QHT-lərin inkişafı üçün ayrılan bu vəsait ABŞ səfirliyi vasitəsilə verilməlidir. Yeni səfirlik qrant elan etməlidir. Yanvarda qanunda dəyişiklik olmasa, yeni səfirlik qrant elan edə bilməz. Hökumət oktyabr ayında qanunla bağlı müəyyən dəyişikliklərin ola biləcəyi barədə cəmiyyətə mesajlar göndərib. Demək, bu vəsaitlərin QHT-lərə ayrılması hökumətin atacağı addımlardan asılıdır. Vəsaitlərin ayrılacağı təqdirdə burada söhbət QHT-lərə olan təzyiqlərin azalmasından deyil, hökumətin aparacağı siyasətdən getməlidir”.

❑ **Cavanşir ABBASLI**

# Müxalifət virtual mübarizədən virtual üzvlüyə keçdi

## Tural Abbaslı: “Siyasət virtualdan daha çox, real hadisədir, mübarizədir”

**Ölkə müxalifəti uzun müddətdir fəaliyyətini yalnız sosial şəbəkələr, mətbuat səhifələri üzərindən qurub. İctimai-siyasi hadisələrə yalnız sosial şəbəkə üzərindən reaksiya verən müxalifət liderləri, bəzi hallarda xalqı da onlara dəstək vermədikləri üçün qınayırlar.**

Son olaraq Tarif Şurasının elektrik enerjisinin və təbii qazın qiymətini artırmasına da müxalifət nümayəndələri sosial şəbəkə vasitəsi ilə etiraz bildirdilər. Üstəlik, xalq sosial şəbəkə üzərindən partiyaya üzv olmağa çağırılır. Belə ki, AXCP sədri Əli Kərimli sosial şəbəkə vasitəsi ilə məhz belə bir müraciətdə bulunub.

Məsələ barədə danışan yeni **AXCP-nin sədri Razi Nurullayev** öncə partiyaların sosial şəbəkədən geniş istifadə etməsində hər hansı qəbahət görmədiyini dedi: “Bu gün Azərbaycanda siyasi mübarizə elə sosial şəbəkələr üzərindən gedir. Bunun da ən böyük səbəblərindən biri odur ki, cəmiyyət bir qədər rəqəmləşib və sosial şəbəkələr artıq bütün dünyada siyasətçilər tərəfindən istifadə olunur. İkinci səbəb isə odur ki, Azərbaycanda siyasətçilər televiziyalara buraxılmır. Digər ölkələrdə də siyasi partiyalar sosial şəbəkələr üzərindən üzvlər cəlb edirlər. Siyasətçilərin sosial şəbəkələr üzərindən siyasət aparmaları ona görə tənqid olunur ki, sanki onlar öz kabinetlərindən kənara çıxmır və xalqla təmas yaratmırlar. Bunun da səbəbləri var. Bir səbəb ondan ibarətdir ki, siyasətçilərin xalqın içərisinə çıxıb normal dialoq aparmaları üçün sosial və siyasi şərait yoxdur. İkinci səbəb də odur ki, xalqın özü də siyasətçilərlə belə təmasdan çəkinir və qorxur”.



**Ağ Partiyanın lideri Tural Abbaslı**ya görə, son zamanlar texnologiyanın inkişafı siyasi fəaliyyətə də təsir edib: “Vaxtilə təbliğat və təşviqat işləri daha çox televiziya və radiolardan asılı idi, indi isə sosial şəbəkələr müxalifətin işini xeyli yüngülləşdirib. Bütün bunlar məsələnin müsbət tərəfidir. Ancaq təəssüf ki, mənfi tərəflər də var. Bu, yeniliklərin müxalifətin, ümumiyyətlə, siyasi kəsimin insanlarla birbaşa ünsiyyətinin qarşısını almasıdır. Real siyasi mübarizələr, daha çox virtual siyasi mübarizələrlə əvəzlənir. Hətta bu gün bəzi ”siyasi liderlər"in həyat və fəaliyyətinə baxdıqda görürsən ki, siyasi fəaliyyəti olmasa belə, virtual aləmdə, sosial şəbəkələrdə 2-3 status yazdıqları üçün özlərini lider hesab edirlər. Bu, günümüzün acı həqiqətidir. Sosial şəbəkələrdən, müasir texnologiyadan faydalanmaq üstünlük olsa da balansı itirməmək lazımdır. Siyasət virtualdan daha çox, real hadisədir, mübarizədir. Üzvlərin cəlb olunması məsələsinə gəldikdə isə deyərdim ki, ilkin ünsiyyət üçün sosial şəbəkələr faydalı bir yerdir. Ancaq sonradan həmin üzvü sosial şəbəkədən real siyasi fəaliyyətə adlada bilməyəcəksənsə, bu ancaq özünü aldatma olacaq. Sadəcə olaraq sosial şəbəkədə “bəyənmə” sayın artacaq və sənə elə gələcək ki, lidersən. Sabah isə mitinqinə bir statusuna yığdığın “bəyənmə” saylarından belə az adam gələcək. İnsanlar var ki, sosial şəbəkədə statuslarını 2-3 min adam bəyənir, ancaq mitinqə çağırdıqları adamlardan 200-300 nəfəri gəlir. Bu, o deməkdir ki, sosial şəbəkədəki fəaliyyət bəzən reallıqla uyğunlaşmır".

**T.Abbaslı hesab edir ki, siyasətçi gərək balansı itirməsinlər:** “Bizim nizamnamədə sosial şəbəkədə üzvlük haqqında anlayış yoxdur. İnanmıram ki, hansısa partiyada da hüquqi baxımdan belə bir anlayış olsun. Ədliyyə Nazirliyində də bu məsələ hələ təsbit olunmayıb. İstənilən halda sən sosial şəbəkədən partiyaya üzv cəlb edə bilərsən. Ancaq sonradan onunla şəxsi görüş mütləq olmalıdır, həmin şəxs üzv olmaq üçün öz imzası ilə müraciət ərizəsi yazmalıdır, fotosunu təqdim etməli, partiya bileti əldə etməlidir. Bunların hamısının virtual formada olması mümkün deyil. Ancaq bir məqam da var ki, təşkilatlanmış azlıq, təşkilatlanmamış çoxluqdan daha güclüdür. Hər bir partiyada sıfır özəkləri var. Yəni adları partiyanın üzvüdür, özləri isə tədbirlərə gəlmir, heç bir üzvlük haqqı vermirlər. Bu gün Azərbaycan siyasi müxalifətində demək olar ki, bütün partiyalarının üzvlərinin ümumi sayının 80 faizindən çoxu bu cür sıfır özəyindədirlər. Balansı doğru-düzgün ölçməyən təşkilat uğur qazanmayacaq”.

❑ **Əli RAİS**



# Gürcüstan turizmdə liderdir, Azərbaycan ÜDM-də...

## Elşən Musayevlə spiker Oqtay Əsədov arasında polemika sözardı...

**Milli Məclisin dekabrın 7-də keçirilən iclasında deputat Elşən Musayevlə spiker Oqtay Əsədov arasında polemika yaşanıb. Deputat ölkəmizdə turizmin inkişaf etmədiyini qeyd edərək, bu gedişlə Azərbaycanın bu sahədə qonşu Gürcüstandan qat-qat geri qalacağını bildirib.**

Onun fikirləri parlament sədrinin sərt reaksiya ilə qarşılaşıb. O.Əsədov Gürcüstanın Azərbaycanın əyaləti boyda olduğunu bildirərək, turizm sahəsində ölkəmizin qonşu dövlətdən geriyə qalmasının mümkünsüzlüyünü vurğulayıb.

Əslən Gürcüstandan olan **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, oktyabr ayında verilən məlumata görə, Gürcüstana 5.5 milyon turist səfər edib. Azərbaycanlılar turistlərin sırasında ilk pillədə qərarlaşıb. Təxminən 600 mindən çox azərbaycanlı turist qonşu ölkəyə səfər etmişdi ki, bu da turistlərin 12-13%-i təşkil edir. İlkin hesablamalara görə, təxminən turistlər 3 milyarda yaxın xərcləmələr ediblər. Bu da təbii ki, böyük rəqəmdir. Gürcüstan kimi iqtisadiyyatı kiçik bir ölkə üçün bu rəqəm ciddidir. Turizmin inkişafı kafe, restoranların inkişafını, alış-veriş mərkəzlərində ticarət dövriyyəsinin artmasını, taksi xidmətinin inkişafını və gəlirlərinin artmasını təmin edir. Bir çox sahələr var ki, turizm inkişaf etdikcə bu sahələri də arxasınca aparır. Gürcüstan əslində burada velosiped kəşf etməyib, dünyanın inkişaf yoluna nəzər salıb. 108 ölkə ilə vizaları ləğv edib. Çox ucuz uçuşlar təşkil olunub. Gürcüstan bazarında 12 şirkət rəqabətli şəkildə fəaliyyət göstərir. Sərnişin daşımalarını burada nəzərdə tuturam. 108 ölkə ilə vizaların ləğvi ilə ucuz uçuşların təşkili olunması və digər amillər Gürcüstanı cəlbedici turizm mərkəzinə çevirib. Rəsmi rəqəmlərə görə Azərbaycandan xeyli dərəcədə qabaqdadır. Burada deputatın dediyində böyük həqiqətlər var. Turizm sahəsində Gürcüstanı Cənubi Qafqazın lideri saymaq olar. Amma ümumdaxili məhsulun həcminə və büdcəyə görə Azərbaycan irəlilədir. Bu da təbii neft faktoru ilə bağlıdır. Gürcüstanda digər sahələrdə də artım müşahidə olunur. İxracatının bu il ilk 10 ayında ötən ilə nisbətən ciddi artım müşahidə olunur. 12-14%-lik artım var. Bu da Gürcüstanın əlavə valyuta qazanmasına imkan yaradır".

**İqtisadçı ekspert Azərbaycanın turizm sahəsində Gürcüstandan geri qalmaması üçün həyata keçirməli olduğu yollardan da söz açdı:** "Turizmlə bağlı Azərbaycanın potensialı var ki, Gürcüstanı qabaqlasın. Həm coğrafi mövqeyinə, həm də ölkənin infrastrukturuna görə bu şansları var. Sadəcə, bu şanslardan istifadə etməyi bacarmaq lazımdır. Bunun üçün ilk növbədə, viza problemləri aradan qaldırılmalıdır. Azərbaycan uzun illərdir bununla bağlı müəyyən addımlar atmaq istəyir. Amma bu istiqamətdə ciddi bir irəliləyiş yoxdur. Bir faktı deyim ki, Türkiyədən Gürcüstana nəinki xarici pasportla, hətta sürücülük vəsiqəsi ilə belə keçmək mümkündür. Amma bizdə bir çox ölkələrə, o cümlədən, Türkiyəyə hələ də viza tətbiq olunur. Onlarla ölkə ilə vizanı aradan qaldırmaq lazımdır. Vizalar sadələşdirilməlidir ki, turist üçün ciddi problemlər yaranmasın. Bizdə ən böyük problemlərindən biri də miqrasiya xidmətində qeydiyyatla bağlıdır. Gürcüstanda bir ildən artıq qalan xarici vətəndaşlar qeydiyyata düşməlidirlərsə, biz də bu 10 gündür. Bu da ciddi problemlər və maneələr yaradır. Aviaşirkətlər məsələsində də problemlər var. Azərbaycan öz qapılarını aviaşirkətlərə açmalıdır. Ucuz sərnişin daşıyan şirkətlər Azərbaycana gəlməlidir. Bu sahələrdə, viza və qeydiyyat məsələsində irəliləyiş olsa, təbii Azərbaycan turizm sahəsində Gürcüstanla rəqabət apara biləcək. Əks halda bu sahələrdə əngəllər qalmaqda davam edəcəksə, nəticə əldə olunmayacaq, Gürcüstan turizm sahəsində daha da irəliyə gedəcək, gəlirlərini artıracaq".

❑ Cavanşir ABBASLI

**Fransadan ATƏT-in Minsk Qrupu həmsədrliyi ilə ziddiyyət təşkil edən daha bir addım atılıb. Belə ki, bir neçə gün öncə prezident Fransua Olland qatı ermənipərəst, Qarabağ separatçılarının ən yaxın dostlarından olan və ötən il icazəsiz şəkildə Dağlıq Qarabağda olmuş, bu üzdən də dərhal Azərbaycan XİN-in "qara siyahısı"na daxil edilmiş Bruno Le Runu daxili işlər naziri təyin edib.**




# "Fransanın daxili işlər naziri kimdir ki, biz ondan çəkinək..."

## Tanınmış ekspertlər XİN-in mövqeyini haqlı saydılar

Rəsmi Parisin qatı erməni-pərəst olan və Azərbaycan qanunlarını açıq-aşkar pozmuş bir şəxsi ölkənin mühüm postlarından birinə rəhbər təyinatı Azərbaycan-Fransa münasibətlərində problemlər meydana çıxarıb. **Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** bildirib ki, Fransanın yeni daxili işlər naziri Bruno Le Ru Fransa parlamentinin üzvü statusunda 2015-ci ilin sentyabr ayında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfər edib. Onun adı arzuolunmaz şəxslər siyahısındadır. Azərbaycan qanunları, ərazi bütövlüyü və suverenliyini pozaraq işğal olunmuş ərazilərə qeyri-qanuni səfər edən hər bir əcnəbi vətəndaş tutduğu vəzifə mövqeyindən və kimliyindən asılı olmayaraq "arzuolunmaz şəxslər" siyahısına daxil edilir.


Hikmət Hacıyev

Hikmət Hacıyev deyib ki, qanun qanundur və hamıya da eyni cür şamil olunur.

Yəni cənab Bruno Le Ru Azərbaycan dövləti və xalqından üzrxahlıq etməyincə, əməlinə görə peşmançılıq hissi keçirməyincə, adı "qara siyahı"dan çıxarılmayacaq. Bu da o deməkdir ki, məsələn gələcəkdə Fransanın prezidenti nümayəndə heyəti ilə Azərbaycana səfərə gələrsə və nümayəndə heyətinin tərkibində daxili işlər naziri Bruno Le Ru olarsa, Azərbaycan hökuməti "qanun hamı üçündür" prinsipini əsas tutaraq onu ölkəmizə buraxmayacaq.

Əslində isə Azərbaycan Fransa tərəfinə etiraz notası da təqdim edə bilərdi. Həm də o səbəbə ki, məsələn, Azərbaycan prezidenti Fransa səfəri zamanı həmin şəxslə-daxili işlər naziri ilə də üz-üzə gəlib onun əlini sıxmaq zorunda qala bilər.

**Prezident katibliyinin sabiq rəhbəri, politoloq Eldar Namazov** "Yeni Müsavat"a açıqlamasında XİN-in mövqeyinin düzgün olduğunu bildirdi: "Biz əgər kiməsə vəzifəyə təyin olunduğu üçün güzəştlərə getsək onda o qara siyahının mənası da olmayacaq və zərərimizə olan presedent yaranacaq. Təcrübə göstərir ki, "qara siyahı"ya düşən bəzi adamlar sonradan ya üzrxahlıq ediblər, ya Azərbaycanın ərazi bütövlüyün tanıdıqlarını, Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan ediblər və buna görə də həmin siyahıdan çıxarılıblar. Bu mənada Minsk Qrupunun həmsədri olan Fransanın yeni daxili işlər naziri də Azərbaycanın ərazi bütövlüyünü tanıdığı barədə açıqlamalar versə onun da qara siyahıdan çıxarılması ehtimalı var. Fransanın bütün rəsmiləri Azərbaycanın ərazi bütövlüyünü tanıdıqları haqqında dəfələrlə açıq fikir bildiriblər. Ona görə də bu ümumi qayda yeni daxili işlər nazirinə də şamil olunmalıdır. Yeni nazir bunu etməyəcəksə, əvvəlki mövqeyində qalacaqsa, onu nə əsasla siyahıdan çıxarmaq olar? Heç bir. Həmin şəxs Fransa-Azərbaycan münasibətlərinə xələl gəlməməsi, onun nazir olduğu dövrdə ortaya müəyyən problemlər çıxmaması üçün yol verdiyi yanlışı düzəltməklə istiqamətində addım atmalıdır".

**Sabiq səfir, politoloq Hikmət Hacızadə** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Bruno Le Runu "qara siyahı"da saxlaması düzgündür: "Mən Xarici İşlər Nazirliyinin açıqladığı mövqe ilə razıyam. Bu cür məsələlərdə prinsipial olmaq lazımdır. Fransanın daxili işlər naziri kimdir ki, biz ondan çəkinək və adını "qara siyahı"dan çıxaraq. Narazı qalacaqlar özləri bilərlər. Azərbaycanın qanunlarını pozub, Azərbaycan da doğru edib onun adını qara siyahıya salıb".

❑ Etibar SEYİDAĞA

# "Xalq diplomatiyası"nın iştirakçısı olmuş konfliktoloqdan təklif

## Əvəz Həsənov: "Vətəndaş cəmiyyətinin indiyə kimi bu istiqamətdə apardığı sülhyaratma fəaliyyətindən istifadə olunmalıdır"

**Ermənistanla Azərbaycan arasında Sülh Naminə Platformanın yaradılmasını "xalq diplomatiyası"nın aktiv iştirakçılarından olmuş tanınmış konfliktoloq Əvəz Həsənov müsbət, eyni zamanda inkişaf etdirilməli olan addım kimi dəyərləndirib. "Yeni Müsavat"a açıqlamasında Əvəz Həsənov eyni zamanda təkliflərini də irəli sürüb. Konfliktoloqun qeyd etdi ki, Ermənistanla Azərbaycan arasında sülh naminə platforma əslində Azərbaycan daxilindən olan bir təşəbbüsdür və müsbət addımdır.**


Əvəz Həsənov

Onun daha çox Azərbaycan ictimaiyyəti ilə koordinasiya olunaraq erməni cəmiyyətinə mesaj kimi qəbul olunması düzgün olardı. Onun əsas tərəfi Azərbaycandan olan fəallar ilə Ermənistandan dissident qüvvələrinin təmsilçiləridir. Məhz Ermənistan tərəfindən olan iştirakçıların öz vətənlərində legitim sülh yaradıcısı kimi imicinin formalaşmasına ciddi ehtiyac var. Bu halda həmin şəxslər erməni cəmiyyətinə müəyyən qədər təsir göstərə bilər: "Buna görə də bu platformanın tərəfdaşlarının hər iki tərəfin cəmiyyətləri ilə işləməsinə ehtiyac daha böyükdür.

Daha çox keçmişdə qalan klassik "xalq diplomatiyası" ilə indiki imkanları məhdud olan fəaliyyət arasında fərq böyükdür. Onun aradan qaldırılması üçün vətəndaş cəmiyyətinin indiyə kimi bu istiqamətdə apardığı sülhyaratma fəaliyyətindən istifadə olunmalıdır. Onların etdikləri leqallaşdırılmalıdır. Onların əldə etdikləri təcrübə cəmiyyətə təqdim olunmalıdır".

Xatırladaq ki, Azərbaycanla Ermənistan arasında Sülh Naminə Platformanı Ermənistan tərəfdən Vahe Avetyan (hüquq müdafiəçisi, yazıçı-publisist), Vaan Martirosyan ("Milli Azadlıq Hərəkatı" ictimai təşkilatının sədri), Syuzan Caqinyan ("Meridian" hüquq-müdafiə təşkilatının sədr müavini, jurnalist), Azərbaycan tərəfdən isə Rövşən Rzayev ("Dağlıq Qarabağın Azərbaycan İcması" İctimai Birliyinin Şura üzvü), Kamil Səlimov (Bakı Dövlət Universitetinin professoru), Şəlalə Həsənova ("İctimaiyyətlə Əlaqələrin İnkişafın Dəstək" İctimai Birliyinin sədri) yaradıblar və bu şəxslər Azərbaycanla Ermənistan hakimiyyətinə, hər iki ölkənin xalqlarına geniş müraciət imzalayıblar.

Müraciətin ümumi məğzi bundan ibarətdir ki, Qarabağ münaqişəsini ermənilər və azərbaycanlılardan başqa kiminsə həll etməyə qadir olduğunu düşünmək sadəlövhlük olardı.

**Müraciət müəllifləri hər iki ölkənin rəhbərliyini və xalqını keçmişin girovuna çevrilməməyə, gələcəyə baxmağa və müharibənin faciəvi nəticələrindən dərs çıxarmağa, münaqişənin tezliklə sülh yolu ilə həlli üçün substantiv və nəticəyə yönəlmiş danışıqları sürətləndirməyə çağırıblar. Kifayət qədər geniş fikirlərin, təklif və çağırışların yer aldığı müraciətin sonunda deyilir ki, vətəndaş cəmiyyətləri arasında dialoqu davam etdirmək üçün bu platformadan istifadə edilməsi münaqişənin həllinə töhfə verəcək.**

❑ Etibar SEYİDAĞA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Xalq diplomatiyası ABŞ-ın gündəmində - Qarabağa dair maraqlı gəlişmə

## Rusiya ilə Amerika arasında regional rəqabət hər iki dövləti Qarabağ strategiyasına düzəliş etmək zorunda qoyur; **ekspert:** "Günün birində Moskvanın mövqeyi dəyişə və Ermənistana təzyiqlər başlaya bilər..."

**İki gün öncə Ermənistanın və Azərbaycanın bir qrup ictimai xadimi və hüquq müdafiəçiləri Sülh Naminə Platforma imzalayaraq yaydılar. Azərbaycan və Ermənistan hüquq müdafiəçiləri və ictimai fəalları üçün açıq saxlanılan sənəd kifayət qədər maraqla qarşılanıb.**




Ən əsası, orada hər iki tərəfdən on minlərlə canlı itkiyə səbəb olan üzücü münaqişənin ədalətli həll formulu göstərilib. Eyni zamanda münaqişəni müstəsna olaraq, Azərbaycan və erməni xalqlarının özlərinin öz arasında həll etmək gücündə olduğu xüsusi vurğulanır - yəni heç bir üçüncü tərəfin, demək, həm də Rusiyanın müdaxiləsi olmadan. Bundan ötrü xalq diplomatiyasının gücündən istifadə eləmək də təşviq olunur.

Artıq Azərbaycan XİN-i, yerli siyasi analitiklər faktı müsbət dəyərləndirib, Azərbaycanın konfliktin həlli üçün belə bir dialoqun da təşkilinə hazır olduğunu qeyd ediblər. Ancaq ictimai dialoqun baş tutması üçün ikinci tərəfin də iradəsi lazımdır. Əfsus ki, Serj Sərkisyanın faşist rejiminin basqısı altında olan erməni toplumu hələ ki buna hazır görünmür - baxmayaraq ki, yeganə çıxış yolunun məhz elə bu format olduğunu anlayır, konfliktin həllinin uzanmasının ən böyük zərbəsinin məhz onun özünə dəydiyini dərk eləsə də.

***

Bu arada bəlli olub ki, ABŞ Dövlət Departamenti 2017-ci il büdcəsində Azərbaycana yardımların artırılmasını təklif edib. Departamentdən Konqresə göndərilən yardım sorğusuna dair izahedici sənədə əsasən ABŞ Azərbaycana dəstək proqramında Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizamlanmasında irəliləyiş əldə edilməsinə dair fəaliyyətin maliyyələşdirilməsini də nəzərdə tutur.

"Bu, əsasən tolerantlığa və gənclər auditoriyaları arasında dialoqun yaradılmasına, ictimai rəy liderlərinin *(ictimai xadimlərin - red.)*, tarixçilərin və jurnalistlərin müəyyən edilərək onların mübadilə proqramlarına daxil edilməsinə yönələn fəaliyyətlər olacaq" - sənəddə bildirilir. Yəni faktiki surətdə söhbət gələn il xalq diplomatiyasının ABŞ tərəfindən ciddi təşviq ediləcəyindən gedir.

Dövlət Departamentinin sənədində diqqətçəkici həm də belə bir məqamın orada yer almasıdır: deyilir ki, Birləşmiş Ştatların Ermənistana dair siyasətinin prioritetlərini bu ölkənin Türkiyə ilə münasibətlərinin normallaşması, Azərbaycanla möhkəm sülhün əldə olunması təşkil edəcək. "Belə ki, sərhədlərin bağlı olması əvvəlki kimi Ermənistanın regional təhdid altında yaşamasına və iqtisadi potensialının məhdudlaşmasına səbəb olur. Ona görə də ABŞ Ermənistan vətəndaş cəmiyyətinin Türkiyə və Azərbaycanla münasibətlərin normallaşmasına yönəlmiş səylərinə dəstək verir" - sənəddə qeyd edilir.

**Müəlliflər daha sonra haqlı olaraq vurğulayır ki, Türkiyə və Azərbaycanla sərhədlərin bağlı olması Ermənistanın inkişafını tormozlayır:** "Ölkənin Avrasiya İqtisadi Birliyinə üzvlüyü də ola bilsin ki, buna əlavə neqativ təsir göstərir". Dövlət Departamenti hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin yekun nizamlanması, Türkiyə ilə normallaşma Qafqazın bütün üç ölkəsi, eləcə də Türkiyə üçün iqtisadi mənfəəti təmin edəcək, habelə Ermənistanın Rusiya hərbi qüvvələrindən asılılığını azaldacaq.

***

ABŞ Dövlət Departamentinin sənədindən göründüyü kimi, ABŞ-ın yeni administrasiyası Dağlıq Qarabağ probleminin həllinə, Azərbaycanın, Ermənistanın və bütövlükdə bölgənin Rusiyanın təsir dairəsindən uzaqlaşmasına daha çox diqqət ayırmaq niyyətindədir. Bu yöndə xalq diplomatiyasına, tərəflər arasında ictimai dialoqa, Türkiyə-Ermənistan sərhədinin açılmasına xüsusi önəm veriləcək - təbii ki, Konqres Departamentin tövsiyələrini qəbul edərsə.

Belə bir ehtimal isə az deyil. Çünki Ağ Ev kimi ABŞ parlamenti də əsasən respublikaçıların nəzarətindədir. Respublikaçılar isə Rusiyaya qarşı sərt siyasət tərəfdarı kimi tanınırlar. Proqnozlara görə, yeni prezident Donald Trampın komandasında da həlledici postları məhz respublikaçılar tutacaq. Başqa sözlə, ABŞ-Rusiya rəqabətinin xarakteri növbəti ildə Dağlıq Qarabağ ixtilafının həll perspektivinə də öz "möhürü"nü basacaq.

***

Bəzi təhlilçilər isə Türkiyə-Rusiya münasibətlərinin istiləşməsi fonunda Qarabağla bağlı da ehtiyatlı nikbinlik nümayiş etdirirlər. Məsələn, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun son Bakı səfərini şərh edən **politoloq Elxan Şahinoğlu**ya görə, bu səfər Ankaranın Qarabağ münaqişəsinin həlli ilə bağlı Moskva ilə apardığı dialoqla birbaşa əlaqəlidir.

"Böyük ehtimalla, o, Lavrovla Qarabağ problemi ətrafında apardığı danışıqların detallarını rəsmi Bakıya çatdırıb. Ankara Rusiya ilə danışıqları intensivləşdirib və məqsədi Moskvanın münaqişənin həlli ilə bağlı Ermənistan hakimiyyətinə təsir etməsidir. İlk növbədə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır ki, sülh prosesinə start verilsin. Lavrovun Çavuşoğlunun təkliflərinə cavabı hələlik bəlli deyil. Ancaq o da məlumdur ki, Ankara ilə münasibətlərini normallaşdıran Moskva Türkiyənin bu fəallığına və Moskva Türkiyə-Rusiya-Azərbaycan formatının yaradılmasına etiraz etmir", - deyə ekspert qeyd edib.

**Politoloq hesab edir ki, hadisələrin bu istiqamətdə inkişafı Ermənistan hakimiyyətini narahat edir:** "Ermənistan tamamilə Rusiyadan asılı vəziyyətə düşüb, ordusu və iqtisadiyyatı Rusiyanın nəzarəti altındadır. Rusiya, hələ ki Ermənistan hakimiyyətini müdafiə edir və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə maraq göstərmir. Ancaq bir gün Moskvanın mövqeyi dəyişərsə və Kreml Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə Ermənistan hakimiyyətinə təzyiq edərsə, bu halda Sərkisyan nə edəcək? Rəsmi İrəvan Moskvaya etiraz edəcəkmi?"

**Analitik hesab edir ki, bu suallar Ermənistanın siyasi dairələrində ciddi müzakirə olunur.** "Qərbdəki erməni lobbisi də Sərkisyanın xarici siyasətindən narazıdır. Erməni lobbisinin qənaətinə görə, Ermənistan hakimiyyətinin Rusiyadan artan asılılığı Ermənistanı fəlakətə aparır. Erməni diasporu düşünür ki, yaxın zamanda Moskva Ankara ilə razılaşaraq Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll edəcək. Ermənistanın getdikcə kasıblaşması və əhalinin azalması faktoru bu ölkənin əhəmiyyətini azaldır. Erməni lobbisi keçmiş illərdə olduğu kimi Ermənistana pul göndərmir. Bunun qarşılığında iqtisadi çətinliklərə rəğmən, Azərbaycanın hərbi potensialı artır, əhalinin sayı isə sürətlə 10 milyon nəfərə yaxınlaşır. Yeni məntiqlə böyük dövlətlərə Cənubi Qafqazda Azərbaycanla əməkdaşlıq daha məqbuldur" - Şahinoğlu vurğulayıb.



**Politoloq onu da bildirib ki, rəsmi Bakı Moskvanın Ermənistan hakimiyyətinə təsir edərək Qarabağ ətrafındakı rayonların boşaldılmasını sürətləndirəcəyinə çox ümidlidir**: "Hələ ki bu, baş vermir. İnanırıq ki, Ankara da Moskvanı bu məsələyə inandırmağa nail olacaq. Həm Bakı, həm də Ankara Rusiyaya təklif ediblər ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli halında bölgədə regional əməkdaşlığı genişləndirmək mümkün olacaq. Bu regional əməkdaşlıq isə Rusiyanın maraqlarına cavab verəcək şəkildə inkişaf edəcək. Ancaq hələ ki nə Bakı, nə də Ankara Moskvadan tutarlı cavab ala bilməyib. Ermənistanı daha çox silahlandırmasına baxmayaraq, Rusiyanın Cənubi Qafqaz siyasətini korrektə edəcəyi istisna deyil".

Onun sözlərinə görə, prezident İlham Əliyev Rusiyanın siyasətinin dəyişəcəyini gözləmədən Qarabağ strategiyasını davam etdirir: "Bu strategiya Azərbaycan ordusunu gücləndirmək, yeni modern silahlar almaq və bununla Ermənistanı zəiflətməkdən ibarətdir. Rəsmi Bakı Ermənistanı orduya və silah alınmasına daha çox pul xərcləməyə məcbur edir. Başqa sözlə, İlham Əliyevin Qarabağla bağlı hazırkı strategiyası Ermənistanı yormaqdan, indiki şərtlədə işğalçının insani və maliyyə itkilərinin artmasını sürətləndirməkdən ibarətdir".

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016

# "MTN çetesi"nə qarşı şok qərar

## Məhkəmə Maqsud Mahmudovun əlindən alınan restoranın və "Mercedes" avtomobilinin qaytarılmasına qərar verdi; müstəntiqin barəsində xüsusi qərardad çıxarıldı


Maqsud Mahmudov

**Bakı Apelyasiya Məhkəməsində hakim Sidqi Məmmədovun sədrliyi ilə ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin müstəntiqi Cavid Quluzadənin adı keçən məhkəmə çəkişməsi sona çatıb. Dekabrın 8-də baş tutan məhkəmə çəkişməsi bu ilin əvvəlində iş adamı Maqsud Mahmudovun iddiası əsasında başlanıb. Nərimanov Rayon Məhkəməsinə iddia ərizəsi ilə müraciət edən iş adamı qeyd edib ki, Bakı-Sumqayıt yolunda yerləşən "Las Veqas" restoran kompleksi və "Mercedes C 300" markalı, qara rəngli, Az 90 ZD 650 nömrə nişanlı maşın MTN əməkdaşları tərəfindən ondan zorla alınıb. Maşını müstəntiq Cavid Quluzadə əvvəlcə öz adına keçirib.**

İşin mahiyyəti budur ki, 2015-ci ilin əvvəlində iş adamı Maqsud Mahmudov "Texnikabank"a müraciət edərək 1 milyon 500 min manat kredit alıb və özü də bilmədən "MTN çetesi"nin diqqət mərkəzinə düşüb. İş adamı həmin kreditin alınması üçün Bakı-Sumqayıt yolunda yerləşən "Las Veqas" restoran kompleksini girov qoyub. Kreditin alınmasından 3 ay sonra M.Mahmudovu "Texnikabank"ın Müşahidə Şurasının sədri vəzifəsini icra edən Ayaz Gərayzadə və müavini, Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin bacısı oğlu Cəmin Hacıyev çağırıblar. İş adamına qarşı ağlasığmaz tələb irəli sürülüb. Ondan reket qaydasında 2020-ci ilədək geri qaytarmalı olduğu krediti 3 günə geri ödəmək tələb olunub. 3 gün sonra isə o, MTN-in istintaq şöbəsinin müstəntiqi Cavid Quluzadənin müşayiəti altında "Texnikabank"a, Cəmin Hacıyevin hüzuruna aparılıb. İş adamı MTN-ə aparılmaqla təhdid edilib, başına oyun açılacağı deyilib. Bundan sonra iş adamı pulu ödəmək iqtidarında olmadığını söyləyib. Onu MTN-çi müstəntiq və digərlərinin əhatəsində təhdid altında Sumqayıt şəhərində yerləşən notariuslardan birinə aparıblar. Orada "Las Veqas" restoran kompleksini özləri ilə gətirdikləri Azad adlı şəxsin adına rəsmiləşdiriblər. Cəmin Hacıyev bununla da kifayətlənməyib, iş adamına hesabına 115 min dollar köçürtdürüb. Bundan başqa, M.Məmmədovun qardaşı oğlunun adına olan "Mercedes C 300" markalı, qara rəngli, Az 90 ZD 650 nömrə nişanlı maşın müstəntiq Cavid Quluzadənin adına rəsmiləşdirilib. 2015-ci ilin oktyabrında MTN-də məlum "təmizləmə"lərdən sonra iş adamı məhkəməyə üz tutmaq qərarına gəlib. O, restoranının, maşınının və əlindən alınan 115 min dolların geri qaytarılması iddiası ilə Nərimanov Rayon Məhkəməsinə müraciət edib.

Nərimanov Rayon Məhkəməsinin hakimi Abbas Əliyev iddanı araşdırıb və təmin edib. Hökmə görə 2015-ci ildə "Las Veqas" restoranının M.Mahmudovun adından A.İsmayılovun adına rəsmiləşdirilməsi haqda müqavilə ləğv olunub. Müstəntiq Cavid Quluzadə barəsində xüsusi qərardad çıxarılaraq Baş Prokurorluğa göndərilib.

Həmin hökmlə 2015-ci il sentyabrın 17-də M.Mahmudovun qardaşı oğluna məxsus avtomaşının C.Quluzadənin adına keçirilməsi haqda müqavilə də qanunsuz hesab edilərək ləğv olunub. 1981-ci il təvəllüdlü Cəmin Hacıyev "Texnikabank" rəhbərliyinə Beynəlxalq Bankdan transfer olunub. 2012-ci ildə baş tutan bu transfer vasitəsilə Cahangir Hacıyev "Texnikabank"ı nəzarətdə saxlayıb. Hökmdən narazı qalan qarşı tərəfin apelyasiya şikayəti isə qeyd etdiyimiz kimi təmin olunmayıb. Onu da qeyd edək ki, Nərimanov rayon Məhkəməsinin hökmündən sonra m.mahmudov bir çox dövlət orqanlarına, Dövlət Təhlükəsizlik Xidmətinə (DTX) müraciət edib. Bakı Apelyasiya Məhkəməsinin qərarından somra isə iş adamı DTX rəisi Mədət Quliyevə yenidən müraciət ünvanlayıb, xahiş edib ki, MTN müstəntiqinin əlindən aldığı maşını ona qaytarsınlar: "DTX-da olmuşam, orada məni çox yaxşı qarşıladılar. Bildirdilər ki, müvafiq məhkəmə qərarından sonra maşın özümə qaytarılacaq. Bakı Apelyasiya Məhkəməsinin qərarından sonra maşınımın qaytarılması üçün ortada heç bir manea qalmır. Ümid edirəm ki, DTX rəisinə müraciətim cavabsız qalmayacaq".

❑ E.MƏMMƏDƏLİYEV




# "Qaçqınkom" qaçqın güzəştlərindən niyə əl çəkmir?

## Komitə sədri Əli Həsənov dövlət məmuru olaraq dövlət vəsaitlərindən səmərəli istifadə olunmasında bilavasitə maraqlı olmalıdır, amma...

**Milli Məclisdə 3 gün davam edən büdcə müzakirələri kifayət qədər şişmiş bir problemi - qaçqın və məcburi köçkünlərin sosial imtiyazlarından sui-istifadə hallarını gündəmə gətirdi. Neft gəlirlərinin güclü axını şəraitində diqqəti cəlb etməyən, bəlkə də büdcəyə o qədər də yük olmayan bu məsələ neft gəlirləri kəskin azalandan və "kəmərlər"in sıxılmasından sonra aktuallaşıb.**

Halbuki Hesablama Palatasının açıqladığı audit nəticələri ilə ciddi müzakirələrə yol açan "qaçqın güzəştləri"nin ən azı optimallaşdırılmasının zamanı çoxdan yetişmişdi. Nədir bu "qaçqın güzəştləri": ayda adambaşına 150 kvt elektrik enerjisi, 35 kub qaz, 5 kub suyu pulsuz, yəni dövlət hesabına əldə etmək, ərzaq təminatı üçün vəsait almaq, zibil pulu, hətta evində telefonu olanlar üçün aylıq abunə haqqını ödəməmək. Bundan əlavə, dövlət ali təhsil müəssisələrinin ödənişli bölməsinə daxil olan qaçqın övladları təhsil haqqını ödəməkdən azaddırlar və sair.

Qaçqınların və məcburi köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ("Qaçqınkom") sədri Əli Həsənovun dediyinə görə, hazırda bu güzəştlərdən yararlanan qaçqınların sayı 1,2 milyon nəfərə çatıb. Bu isə yalnız elektrik enerjisinə görə ayda 12,6 milyon manat (Kvt-ı 7 qəpikdən olmaqla), ildə isə 151,2 milyon manat deməkdir. Qaz güzəşti üzrə isə ayda 4,2 milyon manat (qazın indiki - artmayan qiyməti ilə), ildə isə 50,4 milyon manat büdcə xərci alınır. Yenə də Əli müəllimin məlumatına görə, ötən illər ərzində qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin, mənzil şəraitinin yaxşılaşdırılmasına bütün mənbələr üzrə nə az, nə çox - 6,1 milyard manat xərclənib.

Zamanında xüsusilə qaçqın qəsəbələrinin salınması prosesindəki qanunsuzluqlardan, mənimsəmə faktlarından yazan jurnalistləri qaçqınların bir addımlığına buraxmamaq üçün bütün vasitələrdən istifadə edən "Qaçqınkom" sədri bu dəfə sıravi jurnalist deyil, Hesablama Palatası ilə üz-üzədir. Və aparılan auditin nəticələrini şübhə altına almağa cəsarət etməsə də, qaçqınların sosial güzəştləri adı altında büdcədən çırpışdırılan pulların(hələlik, söhbət qaz-işıq puluna görə oğurlanan bir neçə yüz min manatdan gedir) hesabının sorulmasını əngəlləmək üçün açıq şəkildə təhdidə keçir: "Kiminsə hansı bir idarə, komitə və ya nazirə sözü varsa, öz sözün desin. Hesablama Palatasını burda qeyd etmək lazım deyil. Hesablama Palatası şəffaf qurumdur və şəffaf da işləyir. Hesablama Palatasının rəyində yeyinti anlayışı yoxdur. Yeyinti, filan başqa şeydir. O aktda yazılıb ki, qaçqın və məcburi köçkünlərin yemək xərci siyahısı ilə elektrik, su və qaz təchizatı sayında fərq var." Əli Həsənov həmçinin qeyd edib ki, "son zamanlar qaçqın və məcburi köçkünlərə qarşı hücumlar artıb": "Ölkə başçısı isə bu təbəqəyə qarşı çox həssaslıqla yanaşır". Qaçqınların statusunun və güzəştlərin ləğvi ilə bağlı fikirlərə toxunan Ə. Həsənov deyib ki, bu Azərbaycanın daxili işidir və kimsə buna müdaxilə edə bilməz: " Azərbaycan əhalisinin hansı təbəqəsinə güzəşt verir, hansı hissəsinə yox, bunu dövlət bilər. Bu açıqlamalar qaçqın və məcburi köçkünlərdə narazılıq yaradıb. Onları niyə görə incitməliyik?"(APA).

Göründüyü kimi, "Qaçqınkom" sədri güzəştlərin hətta çatdırılma mexanizminin dəyişməsi təkliflərindən belə ciddi şəkildə narahat olub. Öz narahatlığını isə qaçqınların adına bağlayıb, qaçqın və məcburi köçkünlərə qarşı hansısa hücumların olması, onların isə bundan narazı qalmaları şəklində təqdim edir. Bu açıqlamalardan sonra haradasa qaçqın etirazlarının təşkil olunacağını da gözləmək mümkündür.

Yuxarıda qeyd etdiyimiz kimi, qaçqın və məcburi köçkünlərin xüsusilə enerji və qaza görə ödənişlərinin büdcə hesabına aparılması mexanizminin dəyişməsi çoxdan zərurətə çevrilib. Rayonlarda mənzillə təmin olunan, Bakı və ətraf qəsəbələrdə özlərinə güzəran qurub, mənzil alan - ev tikən qaçqınlar üçün bu güzəştlər ümumiyyətlə, ləğv olunmalıdır. Belələrinin sayı isə yüz minlərlədir. Qaçqınlar var ki, Bakı və ətraf qəsəbələrdə bir neçə evə sahibdir, onları kirayə verir və heç birinə görə qaz-işıq pulu ödəmir. Yaxud burada evi-eşiyi olub, qaçqın qəsəbəsində və ya Bakıdakı yataqxanalarda da qeydiyyatda olanlar var. Hesablama Palatasının bir qaçqının bir neçə yerdə qeydiyyatda olmasına dair aşkarladığı faktlar məhz belə hallarla bağlıdır.

*Bəs bu kimi hallardan "Qaçqınkom"un xəbəri yoxdurmu?* Əlbəttə ki, var. Bu qurumun yerlərdəki nümayəndələri hər qaçqın barədə ətraflı məlumata sahibdirlər və bir qaçqının tutalım ki, enerji güzəşti üzrə 500-600 manat limitinin yığıldığını bilməmiş deyillər. Və bilə-bilə də yenidən onun kartına vəsait yükləyirlər. Halbuki 150 KVt elektrik enerjisinin pulsuz olması heç də həmin enerjinin pulunun istifadə vəziyyətinə baxmadan mütləq olaraq ödənilməsi demək deyil. Sözsüz ki, bu illər ərzində yalnız sərf olunan qaz-enerjinin pulunun ödənməsi üçün mexanizmin yaradılmamasında həm elektrik və qaz təchizatçıları, həm də və daha çox "Qaçqınkom" məsuliyyət daşıyır.

Gələn ildən büdcə xərclərini azaltmaq üçün qaçqınlara verilən qaz-enerji güzəştlərinin birbaşa onların özünə çatdırılması - "Qaçqınkom"un araçılığı olmadan əldə edilməsi təklif olunur. "Qaçqınkom" sədrini qeyzləndirən bu təklif əslində qaçqın güzəştləri ilə bağlı sui-istifadə hallarının tam aradan qaldırılması üçün yetərli deyil. Yuxarıda da qeyd etdiyim kimi, bir kateqoriya qaçqınların bütün sosial güzəştlərinin ləğv olunması, əsl ehtiyacı olanlar üçün effektiv mexanizmin yaradılması və lazım gələrsə, onlar üçün güzəştlərdə artımların aparılması gərəkdir.

Eyni zamanda, büdcə xərclərini azaltmaq üçün "Qaçqınkom"un strukturunda ixtisarların edilməsi, bir çox rayonlardakı nümayəndəliyin ləğv olunması məqsədəmüvafiq olardı.

Beynəlxalq miqyasda işğal faktorunu diqqətdə saxlamaq üçün "Qaçqınkom"un statusunun saxlanması normaldır. Lakin qaçqın statusunda, xüsusilə sosial güzəştlərin tətbiqi ilə bağlı dəyişikliklərin edilməsi zərurətə çevrilib.

Sonda bir məsələni də qeyd edək ki, hörmətli Əli müəllim ilk növbədə dövlətin yüksək vəzifəli məmuru olaraq büdcə xərclərinin optimallaşdırılmasında, dövlət vəsaitlərindən səmərəli istifadə olunmasında bilavasitə maraqlı olmalı, bu istiqamətdə atılan addımların effektivliyini təmin etmək üçün çalışmalıdır, nəinki təklifləri qılıncla qarşılamalıdır. Əks halda, ortaya "maraq nədir" sualı çıxır...

❑ İqtisadiyyat şöbəsi

# Mərkəzi Bankın dollar limiti qüvvəyə mindi

## Natiq Cəfərli: "Bu, ciddi psixoloji təsiri ola biləcək çox səhv addımdır"

**Mərkəzi Bank "Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları"nı təsdiq edib. Yeni qaydalara əsasən, bank hesabı açılmadan Azərbaycan daxilində və ölkədən kənara xarici valyutada pul köçürmələri yalnız rezident və qeyri-rezident fiziki şəxslər tərəfindən aparıla bilər. Rezident və qeyri-rezident fiziki şəxs Azərbaycandan kənara bank hesabı açmadan xarici valyuta vəsaitlərini bir əməliyyat günü ərzində 1 000 ABŞ dolları, ay ərzində isə 10 000 dollar ekvivalentinədək məbləğdə köçürə bilər.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, hələlik bank hesabı olmadan pul köçürmələrə müəyyən limitləşmə gətirilir: "Əslində bu, ciddi psixoloji təsiri ola biləcək çox səhv addımdır. Çünki iş adamları ümumiyyətlə, xarici investorlar üçün hər hansı bir seqmentdə valyuta əməliyyatlarına qoyulmuş məhdudiyyətlər çox pis bir mesaj kimi yozulur. Bu qaydanın tətbiq olunması ən azından gələcəkdə ölkədən valyuta çıxarılması üçün pul köçürmələrinin daha da sərtləşməsi anlamına gəlir. Bu da qorxuducu, ürküdücü addımlardır. İnvestorlar daxildə qazandığı pulun bir hissəsini valyutaya çevirib ölkədən çıxarmağı düşünür ki, bu da təbiidir. Belə bir məhdudlaşdırıcı addımların olması ilə ölkə həmin iş adamlarını itirə bilər. Bu, gələcəkdə hesabdan hesaba pul köçürmələr vasitəsi ilə də böyük qadağaların olması ehtimalını artırır. Bu da Azərbaycan iqtisadiyyatının indiki durumunda heç də yaxşı bir hal deyil. Çünki Azərbaycan hökuməti çalışır, azından bəyan edir ki, ölkəyə investisiyalar cəlb olunmalıdır. Xarici investorların işləməsi üçün kifayət qədər böyük şərait yaradılmalıdır. Bir anlıq təsəvvür edin ki, xarici iş adamları müəyyən vəsait qazanırlar. Tamamilə normal haldır ki, onu valyutaya çevirib qoyduqları yatırımları ölkədən çıxarmaq istəyəcəklər. Buna qoyulacaq məhdudiyyətlər, bununla bağlı hər hansı məhdudlaşdırıcı addımlar həmin iş adamlarının vəziyyətini çətinləşdirəcək və ümumiyyətlə, onları Azərbaycan bazarından qorxudacaq, ürküdəcək".


Natiq Cəfərli

**Ekspert Əkrəm Həsənov** isə bildirib ki, bu, xaricə pul köçürmələri üzrə ən vacib yenilikdir: "Beş ildən sonra Mərkəzi Bank mənim iradımı qəbul etdi. Xırda yenilikləri kənara qoysaq, 3 əsas dəyişikliyi qeyd etmək lazımdır. Birincisi, bank hesabı açılmadan vətəndaşın xaricə köçürmələrinə aylıq 10000 dollar məbləğində limit qoyulub. Düzdür, reallıqda buna nəzarət etmək praktiki mümkün deyil, çünki vətəndaş bir neçə bank vasitəsilə də bu köçürmələri edə bilər və bu halda bankların limitə nəzarət imkanı olmayacaq. Köçürmə bank sirri olduğu üçün bir bankın digər bankdakı əməliyyat haqda məlumat alması mümkün deyil. 32 bankın hərəsi vasitəsilə 10000 dollar köçürmə edilsə, ayda 320000 dollar edir. Bu halda vətəndaşın hər hansı məsuliyyətindən də söhbət gedə bilməz. Çünki Mərkəzi Bankın qaydaları yalnız banklar üçün məcburidir. İkincisi, analoji məhdudiyyət vətəndaşın bank hesabı vasitəsilə yaxın qohumlarına köçürmələrə də şamil ediləcək. İndiyədək yaxın qohumlara bank hesabı vasitəsilə köçürmələr məhdudiyyətsiz idi. Lakin təbii yuxarıdakı halda olduğu kimi burada da məhdudiyyətdən yayınmaq çətin deyil: sadəcə fərqli banklar vasitəsilə köçürmə etmək olar, vəssalam. Nəhayət, ən vacib yenilik vətəndaşın və hüquqi şəxsin xarici bankdakı hesabına depozit qoyulması məqsədilə məhdudiyyətsiz köçürmə etmə imkanının ləğv edilməsidir. Yəni indiyədək xaricdə hesabın var idisə, ora istənilən qədər pul köçürə bilərdin. Hələ 5 il əvvəl nəşr etdirdiyim "Azərbaycanın bank hüququ" kitabımda yazırdım ki, sözügedən imkan valyuta əməliyyatları üzrə bu qaydaları mənasız edir. Çünki istənilən ölkədə hesab açıb ora istənilən qədər pul köçürə bilərəmsə, digər məhdudiyyətlər əhəmiyyətini itirir. Nəhayət ki, Mərkəzi Bank mənim bu iradımı nəzərə alıb sözügedən imkanı qaydalardan çıxardıb. Düz də edib. Çünki bu, faktiki olaraq ölkədən valyutanın məhdudiyyətsiz çıxarılmasının leqal yolu idi. Cari vəziyyətdə isə valyuta rejimi sərtləşdirilməlidir. Ötən ildən başlayaraq dəfələrlə yazmışam ki, valyuta rejimi sərtləşdirilməlidir. Heyf ki, Mərkəzi Bank bunu ölkədən xeyli valyuta çıxarılandan sonra etdi".

❑ RÖYA




# Azərbaycanda "ilin qəhrəmanı": dollar və manat...

## Qubad İbadoğlu: "İlin qəhrəmanı" dollar oldu"
## Sərdar Cəlaloğlu: "Manat çempiondur"

**2016-cı il başa çatdıqca dünyada ilin adamları seçilməyə başlayır. Qeyd edək ki, ilin adamları göstərdikləri fəaliyyətə, qazandıqları uğurlara görə müəyyən edilirlər. Onlarla bağlı xəbərlər il ərzində ən çox oxunan xəbərlər sırasında öndə olurlar.**

Bu il ərzində Azərbaycanda ən tirajlı mövzular heç şübhəsiz ki, dollar və manatla bağlı xəbərlər oldu. Təsadüfi deyil ki, bu tipli xəbərlər bir an belə gündəmdən düşmədi. 2016-cı ildə manatı, yoxsa dolları "ilin qəhrəmanı" hesab etmək olar?

**ADR hərəkatının rəhbəri, iqtisadçı ekspert Qubad İbadoğlu** hesab edir ki, dollar qəhrəmandır: "Təəssüf ki, ilin qəhrəmanı dollar oldu, çünki bütün nominasiyalarda manata üstün gəldi. Depozitlərin 80 faizindən çoxu dollarla formalaşdı, kredit qoyuluşlarında dollara üstünlük verildi. Hətta rüşvət və korrupsiyada da aparıcı valyuta vahidi dollar oldu. Dünyasında dollar görməyən adamlar bu il dolların nə olduğunu gördü, onun gücünü hiss etdi. İl ərzində ən çox lənətlənən də dollar oldu, bir çoxları hesab etdi ki, bütün bəlaların səbəbkarı dollardı. Dövriyyədə manat kütləsi azalsa da, onun dəyəri artmadı və il ərzində ona inam daha da azaldı".

**ADP sədri Sərdar Cəlaloğlu** dünya valyutaları içərisində öz dəyərini itirməkdə manatın ilk sırada qərarlaşdığını söylədi: "Dollara münasibətdə manat dəyərini 2-3 dəfə itirdi. Bir şey ki dəyərsizləşir, o əhəmiyyət daşıya bilməz. Əgər bir qara siyahı da olsa, o zaman manat ilk sırada qərarlaşar və ilin pulu kimi götürmək olar. Bir vaxtlar dünya valyuta sistemində lotuluq edən manat indi dünyadakı bütün valyutalardan ən aşağı səviyyəyə düşüb. Öz dəyərini itirmə sürətinə görə manat çempiondur. Biz şeyi də qeyd edim ki, türk lirəsi artıq dollar və avroya qarşı ciddi müqavimət göstərməyə başlayıb. Türk hökuməti qərar verib ki, xarici əlaqələrdə türk lirəsi dollar və avronu əvəzləyəcək. Eyni vaxtda dollar və avroya qarşı müharibə açan yeganə valyuta türk lirəsidir. Mənə elə gəlir ki, əgər ilin valyutası seçimi olsa, türk lirəsini seçmək lazımdır. Azərbaycanda hökmən "ilin qəhrəmanı"nı seçmək vacib deyil. Azərbaycan bu il qəhrəmansız yaşadı".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev** fərqli düşünür: "Azərbaycanda ilin qəhrəmanı əskinas deyil, onu müzakirə mövzusuna çevirmiş instansiya-Azərbaycan hakimiyyəti seçilməlidir. Cəmiyyətin son 2 ildə üzləşdiyi çətinliklər, təəccüblər, təəssüflər məhz anti-qəhrəman hesab edilən iqtidardır. Çünki il ərzində baş verənlər hakimiyyətin mənfilikləri ilə bağlı olub. Devalvasiya qədər, MTN və Rabitə nazirlikləri, Beynəlxalq Bank məhkəməsi, referendum, enerji daşıyıcı qiymətlərinin bahalanması və s. bu kimi mövzular hər bir azərbaycanlının evinə daxil olan mövzulardır. Bunları isə birləşdirən ünvan Azərbaycan iqtidarıdır. Ona görə də ədalətli olar ki, ilin birincisi YAP iqtidarı elan olunmalıdır. Onsuz da ölkədə qəhrəman yoxdur. Qoy heç olmasa kontr-qəhrəman obyektiv olsun".

❑ Cavanşir ABBASLI

# Sərt qış qapıda... evsizləri necə qoruyaq?

## Elman Babayev: "Nazirlik tərəfindən müvəqqəti sığınacaqların təşkili həyata keçiriləcək, əgər..."

**Artıq Azərbaycanda da hava kəskin soyuyub. Soyuqlar düşən kimi hər birimiz isti evimizə girir, çay içir, isti yeməklər yeyirik. Ancaq bütün bunlardan məhrum olan, soyuğu küçələrdə keçirməyə, kordon kağız parçalarını üzərinə yorğan əvəzi atıb isinməyə çalışan bəxtsiz, talesiz insanlar da var. Onların isə bir adı var - bomj. Statistikaya görə, hər il nə qədər bomj soyuqdan donur. Halbuki, onların ölümünün qarşısını almaq üçün elə böyük vəsait tələb olunmur. Çadırlar qurmaq, oranı istiliklə təmin etmək və isti bir çay. Xatırladaq ki, 2014-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi paytaxtda bomjlar üçün müvəqqəti sığınacaqlar təşkil etmişdi. Həmin sığınacaqlarda bomjlar isti yataq, ay və yeməklə təmin olunurdular.**

*Maraqlıdır, bu il də bomjlar üçün müvəqqəti sığınacaqlar təşkil ediləcəkmi?*

**Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev** yeni layihə razılaşdırılaraq təsdiq edilərsə, havanın temperaturundan asılı olaraq müvəqqəti sığınacaqlar təşkil ediləcəyini dedi: "Çətin hava şəraitində müvəqqəti sığınacaqların və sığınacaqlarda sosial xidmətin təşkilini tənzimləyən qaydalar hazırlanıb. Əvvəlki illərin qış mövsümlərində çətin hava şəraitinin hökm sürdüyü vaxtlarda, yəni temperaturun sıfır dərəcədən aşağı düşdüyü qarlı-şaxtalı günlərdə nazirliyin təşəbbüsü ilə Bakı şəhərinin rayonlarında və Sumqayıt şəhərində müvəqqəti sığınacaqlar təşkil edilib. Həmin sığınacaqlarda müəyyən yaşayış yeri olmayan, yaxud hava şəraiti ilə əlaqədar yaşayış yerinə getməkdə çətinlik çəkən şəxslər qəbul edilərək, zəruri qida məhsulları, lazım gəldikdə tibbi xidmətlərlə təmin ediliblər".

**Şöbə müdiri əlavə etdi ki, 2014-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi belə tədbirlərin təşkilinin məhz normativ hüquqi əsasla tənzimlənməsinin zəruriliyini nəzərə alaraq, çətin hava şəraitində müvəqqəti sığınacaqların və sığınacaqlarda sosial xidmətin təşkilini tənzimləyən Qaydanın layihəsini hazırlayıb:** "Təəssüf ki, ötən müddətdə həmin layihəni aidiyyəti dövlət qurumları ilə tam razılaşdırmaq mümkün olmayıb. Əgər yeni layihə razılaşdırılaraq təsdiq edilərsə, havanın temperaturunun azı 45 dərəcə isti və ilin soyuq vaxtlarında sıfır dərəcədən aşağı olduğu hallarda (çətin hava şəraitində) müəyyən yaşayış yeri olmayan və yaxud hava şəraiti ilə əlaqədar yaşayış yerinə getməkdə çətinlik çəkən şəxslər üçün nazirlik tərəfindən müvəqqəti sığınacaqların təşkili həyata keçiriləcək".


Elman Babayev

Əgər müvəqqəti sığınacaqlar ötən ildə olduğu kimi bu il də təşkil edilməsə, küçədə yaşamağa məcbur olanlar məscidlərə üz tuta bilərlərmi? Maraqlıdır ki, "Allahın evinin" qapıları bu insanların üzünə açılacaqmı?

Sualımıza cavab almaq üçün Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə əlaqə saxlamağa çalışsaq da zəngimizə cavab verən olmadı.

**Dini ekspert Kənan Rövşənoğlu** isə bildirdi ki, belə vəziyyətdə evsiz-eşiksiz insanlara "Allah evləri" qapılarını açmalıdır: "Bildiyim qədər əvvəlki illərdən fərqli olaraq bu il soyuq havalarda evsizlər üçün sığınacaqlar düzəldilməyib. Aydın məsələdir ki, bu il bir sıra ixtisarlarla əlaqədar bu kimi xərclər də ixtisar olunacaq. Amma bunun başqa yolu var. Bu işi məscidlər görə bilər. Məscidlərə dövlət də müəyyən enerji limiti verir, yəni məscidlər bu cür soyuq və şaxtalı havalarda evsiz-eşiksiz, soyuqda qalan adamlara "Allah evləri" qapılarını açmalıdır. Bu, həm də "Allah evi" missiyasına uyğundur. Dünya praktikasına məscidlər, kilsələr bu cür ehtiyaclı insanlara yardım fəaliyyətləri həyata keçirir, onları gecələmək üçün yerlər, isti yeməklər və geyimlə təmin edir. Bu təcrübə artıq Azərbaycanda da həyata keçirilməlidir. Dini icmalar artıq sosial işlərə də qoşulmalıdır. Bu həm də Allah yanında böyük bir savab iş olar".

**Qeyd edək ki, Azərbaycandan fərqli olaraq digər ölkələrdə küçədə yaşamağa məcbur olan evsiz-eşiksiz insanlar taleyin ümidinə buraxılmır və dövlət onlara sahib çıxır. Qışı sərt keçən Rusiya, Ukrayna, Türkiyə, hətta Gürcüstanda belə sahibsiz insanları soyuqdan qorumaq üçün küçələrdə isitmə məntəqələri yaradılır. Onlara isti yemək, çay, paltarlar verilir. Avropa ölkələrində isə bomjlar üçün sığınacaqlar, gecəqondular yaradılıb, dövlət ailə qayğısından məhrum olan bu insanlara sahib çıxır.**

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016

# Azərbaycan at əti ixrac edəcək; onu kimlər və necə yeyir...

## **Adil Qeybulla:** "At əti daha təmiz və kifayət qədər də problemi olmayan bir qidadır"
## **Kənan Rövşənoğlu:** "İslam dinində at əti yemək məkruhdur"

**Azərbaycan kilosu 13-16 dollara at əti satacaq. Belə ki, Azərbaycanın və Moldovanın müvafiq şirkətləri arasında 2016-cı ildə bağlanmış müqaviləyə əsasən 2017-ci ildə Azərbaycandan bu ölkəyə at əti ixrac edilməsi nəzərdə tutulub. At kəsimi sexlərində yalnız çıxdaş və damazlığa yaramayan atların baytar həkimin nəzarəti altında ayrıca kəsilməsi, soyulması və ətin tədarük olunması və soyuducu kameralara yığılaraq Moldova Respublikasına göndərilməsi nəzərdə tutulur.**



Azərbaycanda at ətinin satışına qadağa olmasa da, bu ətlər açıq şəkildə satılmır və azərbaycanlıların qida rasionuna daxil deyil. Doğrudur, zaman-zaman dana əti ilə at ətinin qarışdırılıb satıldığı, kolbasa və sosiskalara vurulması xəbərləri yayılır. Dəfələrlə at ətini satanlar da saxlanılıb. Düzdür, at ətinin istehlakı qadağan deyil. Problem ondadır ki, işbazlar bunu mal əti adına satırlar və bu da məsuliyyət yaradır.

Ölkəmizdəki atların azlığını nəzərə alsaq Azərbaycanın bu biznesdən elə də gəlir əldə edə bilməyəcəyini demək mümkündür.

**Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov** Teleqraf.com-a açıqlamasında Azərbaycanda cəmi 70 min baş at olduğunu bildirib və deyib ki, bundan böyük gəlir götürməyə ümid etmək olmaz: "Azərbaycanda müxtəlif rayonlar üzrə yararsız atların kəsimi, daşınması baha başa gələcək. Ölkədə atlar bir təsərrüfatdan çıxdaş olmayacaq ki, həmin heyvanları kəsib Moldovaya göndərsinlər. Məsələn, müşahidə aparacaqlar ki, hansısa bir rayonda at zədə alıb. Həmin at kəsiləcək və ixrac olunacaq. Təxmini hesablayanda hər rayonda 3 gündən bir at çıxdaş ola bilər. Bu, bahalı bir fəaliyyətdir".

**Vahid Məhərrəmovun sözlərinə görə, at əti istehsalı üçün normal şərait olmalıdır:** "Məsələn, ətliyə verilməli bir neçə at varsa, onları maşına yığıb daşımaq daha ucuz başa gələr, nəinki bir atı emal müəssisəsinə aparmaq. Atın əti havayı olsa belə, onun daşınması, emalı, ixracı pul aparacaq".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** isə "Yeni Müsavat"a açıqlamasında at ətinin mal ətinə qarışacağını, mal əti adı altında istehlakçılara at əti satılacağını və onların aldadılacağını dedi: "Azərbaycanın ət bazarı həddindən artıq çirklənəcək. Mən hətta satışa eşşək ətlərinin də çıxacağını gözləyirəm. Mal ətinə eşşək və digər bilmədiyimiz heyvanların da ətləri qarışdırılıb satılacaq. Bu il Azərbaycan üçün sürpriz oldu, qurbağa ətləri meydana çıxdı, gələn ildə eşşək, at əti olacaq və istehlakçıların hüquqlarının pozulması baş verəcək. Biznes qurumları toxunulmazlıq şəraitindən sui-istifadə hallarını daha da artıracaq. Düşünürəm ki, ənənəvi olmayan ətlərin Azərbaycanda satışı arzuolunmazdır. Bu Azərbaycanda keçirilən səhv siyasətdir".

*"Alıcılar ət alarkən ona at əti qatıldığını necə ayırd edə bilərlər"* sualına isə qurum sədri bunu daha çox bişirərkən müəyyən etmənin mümkün olduğunu dedi: "At əti qabırğalarının enliliyi ilə fərqlənir. At ətinin qeyri-adi tam verən yağı var. Bunu ayırd etmək çətin olacaq və ət bazarı kifayət qədər çirklənəcək. Əslində qanunvericiliyə görə Azərbaycanda at, eşşək əti satmaq qadağan deyil. Sadəcə olaraq üstünə yazılmalıdır ki, bu nə ətidir. Onun üzərinə heç nə yazılmaması istehlakçıların aldadılması kimi başa düşülür və bunun üçün də çox kiçik cərimə nəzərdə tutulub. Lakin at ətinin ixracı məsələsi həyata keçirilərsə, o zaman açıq-aşkar satılacaq və mal ətinə qarışdırılacaq. Hələ qadağan olunduğu halda görürük ki, ölmüş, murdar olmuş atların, eşşəklərin ətləri gətirilib satılır. İndi buna azadlıq veriləndən sonra görün vəziyyət hansı həddə çatacaq. Əgər at əti Moldovaya verilirsə, bu, ölkə bazarında da açıq şəkildə satılacaq. Çox güman ki, əhalinin bir hissəsi də bunu alacaq. At əti dinimizdə arzuolunmayan ət hesab olunur".

At əti yeməyin zərərli və ya zərərsiz olmasına gəlincə isə **tibb elmləri doktoru, professor Adil Qeybulla** qoyun ətinə nisbətən at ətinin zərərsiz olduğunu dedi: "Bilirsiniz ki, Orta Asiya ölkələri at ətindən geniş istifadə edirlər. Əgər atda başqa xəstəlik yoxdursa, istifadə oluna bilər. Ona qalsa bizim istifadə etdiyimiz qoyun ətində, mal ətində belə hansısa infeksiya varsa, onun əti istifadə edilə bilməz. At əti də bu qəbildəndir. At əti yoxlanılır, baytarlıq müayinəsindən keçdikdən sonra istifadə olunur. Bu, daha təmiz və kifayət qədər də problemi olmayan bir ətdir. Sadəcə, burada qidalanma məsələsi var. Bizim orqanizmimiz buna o qədər də öyrəşməyib. Ancaq hesab edirəm ki, burada elə də bir problem yoxdur. Yəni zərərsiz bir qidadır".

*Maraqlıdır, bəs İslam dini at ətinin yeyilməsinə necə baxır?*

**Dini ekspert Kənan Rövşənoğlu** İslam dinində at əti yeməyin məkruh olduğunu dedi: "İslam dinində at əti yemək məkruh, yəni bəyənilməyən, xoş görülməyən bir işdir. Eyni zamanda qatır və ulaq əti bəzi məzhəblərə görə haram, bəzilərinə görə isə məkruhdur. İslam araşdırmaçıları at ətinin qadağan olunması ilə bağlı bir sıra səbəbləri qeyd edirlər. Bu səbəblərin bir qismi mənəvi, bir qismi sosial və nəhayət, tibbi səbəblərdir".

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat katibi Yolçu Xanvəli** isə mətbuata açıqlamasında Azərbaycan və Moldova arasında at ətinin ixracı barədə hələlik yalnız müqavilə bağlandığını bildirib: "Bir sıra regionlarda, o cümlədən Gəncə regionunda at kəsimi məntəqəsinin tikilməsi planlaşdırılır. Əvvəlcə məntəqə tikilməlidir və həmin məntəqə soyuducularla təmin olunmalıdır".

**Y.Xanvəlinin sözlərinə görə, həmin məntəqələrdə baytarlıq-sanitariya ekspertiza laboratoriyaları fəaliyyət göstərməlidir:** "Bundan sonra heyvanlar qəbul olunacaq. Müayinə edildikdən sonra kəsiminə icazə veriləcək. At əti yalnız Moldovaya ixrac olunacaq. Yəni ölkə daxilində bu ətin satılması mümkün deyil. Bütün proseslər Dövlət Baytarlıq Nəzarəti Xidmətinin əməkdaşlarının nəzarəti altında həyata keçiriləcək".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Başsağlığı

**Dilarə Əliyeva Adına Qadın Hüquqları Cəmiyyətinin kollektivi Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Ümid Rəhimoğluna atası Rəhim Mirzəyevin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 274 (6595) 9 dekabr 2016




Cümə söhbətləri

# Yalan danışan niyə yalan danışır?

**Bismillahir-Rahmənir-Rahim! Yaşadığımız həyat müxtəlif məsələlərlə, problemlərlə səciyyələnir. İnsanlararası münasibətlər burada mərkəzi yeri tutur. Bu münasibətlərin harmoniyasından, optimallığından cəmiyyətin ümumi durumu asılıdır.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

İnsanlararası münasibətlər bir çox amillərdən asılıdır. Bu amillərdən ən mühümü - səmimiyyətdir. Zira, məhz səmimiyyət münasibətlərin düzgün bünövrə üzərində inkişafını şərtləndirir. Əks təqdirdə, insanlar arsında etimad itər, heç kəs bir-birinə inanmaz. İmam Əli (ə) buyurub: «Yalançı kimi tanınana etimad azalar, yalan deməkdən çəkinənin sözlərinə inanılar».

Gördüyümüz kimi, mübarək dinimiz yalanın ictimai fəsadları haqqında ciddi surətdə xəbərdarlıq edir.

## İmanlı insana aid ola bilməyən xüsusiyyət

Mübarək İslam məntiqində yalanın hər bir təzahürü, o cümlədən, zarafatla deyilən yalan da pislənir. İmam Səccad (ə) buyurmuşdur: «Yalanın kiçiyindən və böyüyündən, ciddi və ya zarafatla deyiləninindən çəkinin. Çünki insan xırda yalanlar danışsa, böyük yalanlar söyləməyə də cəsarətlənər».

Mübarək İmamımızın (ə) bu cümləsində çox incə bir mövzu və çox incə bir mətləb vurğulanır ki, insan gərək yalan danışmaqdan çəkinsin - istər bu yalan kiçik ola və istərsə də böyük ola. Çünki, insan kiçik yalanları söylədikcə, yavaş-yavaş onda böyük yalanları da söyləməyə cürət tapılar və o, bu mənfi əməldən çəkinməz. Əziz Peyğəmbərimizdən (s) bir mübarək hədis var ki, harada möminlə, iman əhli ilə yalan arasında heç bir ümumi məxrəcin ola bilinməməsi söylənir. Burada Rəsuli-Əkrəm (s) bəyan edir ki, iman olan yerdə, mömin olan yerdə yalan yoxdur. Yalan olan yerdə mömin və iman yoxdur. Rəsuli-Əkrəm (s) burada buyurur: «Mömin hər bir xüsusiyyəti qazanar, yalnız xəyanət və yalandan başqa».

Çox mübarək bir hədisdir. İnsan əgər bir balaca bu haqq sədalarından birinə diqqət yetirə və anlaya ki, bunu Rəsulallah (s) şəxsən ona da söyləyir, anlaya ki, əziz Peyğəmbər (s) sonuncu nicatverici Elçi kimi ona da müraciət edib bu sözü söyləyir - daxilində bir təlatüm baş qaldırar, bir inqilab baş verər. Bəli, insan Rəsulun (s) bu sözünün onun özünə də ünvanlanmış olduğunu dərk etsə və düşünsə ki, bu nə sözdür Peyğəmbər (s) ona deyir - həyatında çox şeyi dəyişər.

Yəni mümkündür mömin bir çox şeylərə adət edə. Amma, İslam məntiqinə görə, iman əhlinin, mömin və mömінənin mümkün deyil yalan və xəyanətə adət etməsi. Yəni necə ki, su quruluq qəbul etmir, o cür də iman əhli yalan və xəyanəti özü üçün qəbul edə bilməz. Necə ki, 2 ədədi heç vax tək ola bilmir, həmişə cüt olaraq qalır - mömin və mömінə də heç vaxt yalançı və xəyanətkar ola bilməz. Harada yalançı var, harada xəyanət var - orada mömin və mömінə yoxdur.

## Yalan danışmaq nədən xəbər verir?

Bir başqa hədisdə əziz Peyğəmbərimiz (s) yalan danışmağın həqiqi bünövrəsini, əsasını bəşərə bəyan etmişdir. Bir haşiyə çıxaq ki, 14 əsr bundan qabaq hələ psixoanalitika, psixologiya barədə heç bir məlumat olmayan bir zamanda, İslam dini yalan danışmağın psixoloji səbəblərini, yalan danışmağın fəlsəfəsini insanlara çatdırmışdır. Həzrət Rəsuli-Əkrəm (s) buyurub: "Yalan danışan, vücudunda olan həqarətdən qeyri bir səbəbdən yalan danışmaz..."

Məlum olur ki, yalan danışanın yalan danışmasının kökündə bir əsas səbəb durur. O səbəb nədir? Yalan danışan mütləq və mütləq ona görə yalan danışır ki, öz şəxsiyyətini kiçik bilir, özünü şəxsiyyətsiz görür. O, yalan danışmaqla özünün şəxsiyyətsizliyindən xəbər verir. İslam məntiqinə görə yalan danışan insanın şəxsiyyəti yoxdur. İslam məntiqinə görə yalan danışmaq insanın daxili komplekslərindən irəli gəlir. İslam məntiqinə görə yalan insanın daxili aləminin xəstəliyindən, xarablığından, fəsadlığından xəbər verir. Yalan danışmaq insanın kompleks yığımı olmasından xəbər verir. Bunun İslam bir vaxt söyləyib ki, hələ dünyada nə Ziqmund Freyd var idi, nə Erix Fromm var idi, nə də başqa psixoanalitiklər var idi. Və bəşər təhtəlşüurun nə olduğunu belə bilmirdi. Belə bir şəraitdə, 1400 il bundan öncə qəlblərin həkimi olan Rəsulallah (s) deyir ki, yalan danışma və yalan danışmaqdan müalicə ol. Bunun müalicəsi sənin şəxsiyyətivin müalicəsindən başlaya bilər.

## Bütün pisliklərin açarı

Görək bu yalan nədir? İslam məntiqi deyir ki, istər kiçik olsun, istər böyük - ondan çəkin. İslam məntiqi deyir ki, mömin və yalan bir yerə sığışmır. İslam məntiqi söyləyir ki, yalan insanın daxili komplekslərindən xəbər verir. Görək yalan nədir. Yalan, çox sadə desək, insanın dil ilə törətdiyi kəbirə günahlardandır. Yalan - günahların açarıdır. İmam Əsgəri (ə) buyurub: «(Bütün) Pisliklər bir evdə yığışıb və onun açarı da yalandır».

Yalan öndə durur, sonra əxlaqsızlıq gəlir, sonra oğurluq gəlir, sonra xəyanət gəlir, sonra müxtəlif zülmlər gəlir. Yalan - bütün pisliklərin və bütün eybəcərliklərin başıdır. Necə ki, həqiqi iman bütün gözəlliklərin, bütün fəzilətlərin, bütün yaxşılıqların mənbəyidir və başıdır, o cümlədən də yalan bütün pisliklərin, bütün eybəcərliklərin başıdır. Buna görə imanla yalan bir yerə yığıla bilməz. Yalan niyə danışılır? Yalan əksər hallarda ona görə danışılır ki, insan istəyir hansısa bir düzgün yolları qoyub, daha "qısa" yollarla hədəfə çatsın. Daha bilmir ki, özünü son hədəfdən, son xilas olmadan, son nicat tapmadan məhrum edir.

Bu gün dünyamızda dəyərlər o qədər dəyişilib ki, yalan danışmaq - zirəklik, iş bacarmaq, siyasətçi olmaq kimi qələmə verilir. Düzgün insana, düz danışan insana deyirlər ki, sən bacarıqsızsan, sən dünya adamı deyilsən. İnsani dəyərlər bu qədər dəyişib.

Amma yalan danışan əslində nə edir? O, birinci özünü aldadır, özünün pak fitrətini aldadır. Onun fitrəti onu yalan danışmağa sövq etmir. İnsanın daxili deyir: "Yalan danışma, sənə yaraşmır". İnsanın daxili ona neçə gün əzab verəcək yalan danışdığına görə. Gecələr yata bilməyəcək o ana qədər ki, onda insanlıqdan bir əlamət qalmayacaq. İnsanlığını itirəndə qəlbi o qədər möhürlənəcək ki, yalan onun qidasına çevriləcək. Yalan - şəxsiyyəti, ləyaqəti tapdalamaq deməkdir. Yalan insanın öz Rəbbini aldatması deməkdir. Gözəllik mənbəyi, yaxşılıq mənbəyi, fəzilət mənbəyi olan Rəbbə qarşı qalxmaq deməkdir. Yalan danışmaq şeytan ləşgərlərinə çevrilmək deməkdir.

Yalan - yaradılışın fəlsəfəsinə qarşı çıxmaqdır. Yalan yaradılışın əksinə çıxmaqdır, xilqətin ziddinə çıxmaqdır. Çünki, yaradılış düzgünlük əsasında qurulub, gersçəklik əsasında qurulub. Qurani-Kərimin "Ənam" surəsinin 73-cü ayəsində bəyan edilir: "Göyləri və yeri haqq olaraq yaradan Odur. "Ol" deyəcəyi gün dərhal olar. Onun sözü haqdır!...". Haqq üzərində, düzgünlük üzərində yaradıb dünyanı Allah.

Həzrət Əli (ə) mübarək "Nəhcül-Bəlağə"də buyurur ki, dünya düzgünlük yeridir o kəslər üçün ki, onu təsdiqləyərlər. Yəni bu yalan sözdür ki, deyələr dünya yalan yeridir, fırıldaq yeridir, hoqqabazlıq yeridir, Makiavellilərin yeridir. Xeyr, bu dünya nəyə görə onların yeri olmalıdır? Çünki, düz danışanlar öz düzgünlüklərindən kənara çəkilir, yalan danışmağa başlayırlar. Ona görə ki, öz düzgünlüklərindən, öz haqlarından geri çəkilirlər. Həzrət Əli (ə) məntiqinə görə isə dünya düzgünlük yeridir, sidq yeridir.

## Yalanın həzm edilən forması

Nə zaman yalan lap rahat insanların qəlbində yer tutur? Axı yalanı elə-belə deyərsən, heç kim qəbul etməz. Çünki, insanın fitrəti var. İnsanın daxilində pak bir fitrət var. O, batili dərhal qəbul etmir. Bu halda haqdan istifadə edirlər. Haqdan bir miqdar götürürlər, üstünə o zəhərli yalanı da qoşurlar - nəticədə bu yalan topluma artıq yedirdilməli, həzm edilməli bir halda gəlib çıxmış olur. İnsan bunu rahat həzm edir. Yalanın özünü isə təbii ki, elə rahatlıqla həzm etmir. Allah Təala Qurani-Kərimdə bəyan edir, buyurur ki, ən düz danışan O, özüdür. Yəni istəyir insanı ayılda, deyir aldanma. Allahdan daha düz danışan kimdir? Sonra bir kəlmə də Qiyamət günü üçün işarə edilərək, buyurulur ki, bu, bir gündür ki, düz danışanlar öz düzgünlüklərindən xeyir apararlar.

Allah Təbarəkə və Təala buyurur ki, Mən düz danışanam. Kimsə səni aldada bilər, çaşdıra bilər, amma ey bəndəm, bunu bil və qəbul et. Kimdir Məndən daha çox düz danışan? Əgər ən düz danışan Mənəmsə, deyirəm ki, heç kimin heç kimə yiyə durmayacağı bir gün var və o gündə yalnız düzgünlük və sidq qəbul ediləcək. O günə hazırsanmı?

Yaxud başqa bir yerdə yenə ayılıdıcı bir müraciət var. Rəbbimiz bizi ayıldır, bizə nicat vermək istəyir, bizi xilas etmək istəyir, bizə həqiqəti bəyan edir. Qiyamət günü barədə buyurur ki, o gün mal və övlad bir kəsin halına xeyir verməyəcək. Bir haldan başqa ki, salamat qəlblər, sağlam qəlblər, düz qəlblər, pak qəlblər Allahın dərgahına gedəcək.

Amma qəlb nə vaxt təmiz olur? Qəlb sahibi deyir ki, o qəlbin təmizliyini Mən müəyyən edəcəyəm. Orada meyarlar başqadır. Orada elə kəslər olmayacaq ki, kimsə desin mənim qəlbim təmizdir. Söz çox deyilə bilər. Amma görürük ki, əziz Rəbbimiz bizə buyurur ki, ey o kəslər ki, iman gətiriblər. Ey mömin və mömінələr, təqvalı olun, Allahın məntiqi ilə dünyaya nəzər salın, Allah rənginə bürünün. Bu beş günlük dünyaya aldanmayın. Allah o qədər sevir insanı, o qədər əziz bilir insanı ki, onun xilasını istəyir. Hər bir şey vəd edə bilər insana, amma Allah insana həqiqətləri vəd edir. Ey insan, təqvalı ol və düz danışanlarla ol. Rəsulla (s) ol, Əhli- Beytlə (ə) ol. Hər zaman düz danışanlarla ol.

## Toplumun inkişafı nədən asılıdır?

Bəli, görürük ki, insanın həqiqi bədbəxtçiliyi onun şəxsiyyətsizliyindən, onun öz şəxsiyyətinə göz yumduğundan, öz ləyaqətini unutduğundan, özünü ibtidai, şüursuz məxluq səviyyəsinə saldığından əmələ gəlir. Bu, böyük xəstəliklərdir, onlardan müalicə olunmaq lazımdır.

Günümüzə də gəldikdə, görürük bütün cinayətlərin başında yalan durur. Bütün nahaqların başında yalan durur. Bütün zülmlərin başında yalan durur. Bir dəfə, iki dəfə, üç dəfə kiçik yalan danışmaqla, yalana adət edilir, sonra böyük yalanlara keçilir. Həm fərdi həyatda, həm ailə həyatında, həm toplumda bu, belədir. Fərd əvvəl özünü aldadır. Özünü aldadandan sonra fərd ətrafını, mühitini, övladını, valideynini aldadır. Sonra ictimai yalanlara keçir, adət edir yalan danışmağa. Çətini insanda bu halın əmələ gələninə kimidir. Sonra yalan insanın daxilinə sirayət edir. İnsanın daxilinə keçir. Nə səviyyədə imkanı varsa, o səviyyədə yalan danışır. Çətini insanın bu yola qədəm qoymasına kimidir. Bütün fəsadların başı yalanla başlayır.

Bu baxımdan insanlar özlərinin vətəndaş vəzifəsini dərk etməlidirlər. Ola bilər biriləri deyəcək biz bilmədik, ola bilər o biriləri deyəcək bizim xəbərimiz yox idi. Amma insanın nə özünü, nə ailəsini, nə də toplumunu aldatmağa zərrədək ixtiyarı yoxdur.

Toplum fərdlərdən ibarətdir. Hər toplum o qədər inkişaf edir ki, onun önündə gedən, avanqardında olan insanlar, onun elitası, aparıcı qüvvəsi, mühərriki sayılan insanlar vücudi səmimiyyət yükünə malikdirlər. Onlar əqidələrinə, məfkurələrinə nə qədər sadiqdirlərsə, toplum da bir o qədər sağlam olar.

Bütün bunlar dini mühitə də aiddir. Axı, din - düzgünlükdür, din - gerçəklikdir, din - haqdır. Buna görə dinin adından danışmaq - böyük məsuliyyətdir. Dinin adından danışmaq hələ dindar olmaq deyil. Bunu hamı gözəl bilir. Hamı bilir ki, dinin adından danışan gərək dinin daşıyıcısı olsun. Bəli, hamı bunu əla bilir, sadəcə, bəzən birilərinin planlarına uyğun gəldikləri üçün dinlə dindarı bilərəkdən qarışdırırlar. Dini "Taliban" sifətində yeritməyə cəhd edirlər. Bütün bunlar müsəlmanların xüsusilə məsiliyyətli olmasını tələb edir. İman daşıyıcıları hər zaman toplumun vicdanı rolunu icra etmək missiyası daşıyırlar. Bu, iman daşıyıcılığına iddialı insanların üzərinə böyük bir İlahi məsuliyyət müəyyən edir. Ədalətsizliyə, zülmə göz yummalı deyil imanlı adına iddialı insan. Laqeydlik sindromuna yoluxmamalıdır iman adına iddialı insan. Bu müvəqqəti dünyanın gözqamaşdırmalarına aldanmamalıdır o. İnsanlara Rəsulullah (s) nurunu, Əhli-Beyt (ə) işığını çatdırmalıdır.

**Allahım! Bizləri yalandan uzaq olanlardan və hər zaman haqq ilə olanlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 274 (6595) 9 dekabr 2016



## Facebookda çox vaxt keçirənlərin kredit borcu artır

Kolumbiya Biznes Məktəbi və Pitsburq Universitetinin ortaq araşdırmasına görə, sosial şəbəkədən istifadənin artımı istifadəçilərin bədən kütlə indeksini pozur və kredit kartı borclarını artırır. İstehlakçı davranışları üzrə mütəxəssisləşən "Consumer Research" jurnalının son buraxılışında yer alan araşdırmada göstərilib ki, facebookdakı yoldaşlarını tez-tez təqib edən istifadəçilərin ani olaraq özünə inamı artır. Bu artım istifadəçinin özünə nəzarətini azaldır və sosial şəbəkədə daha çox vaxt keçirdiyi üçün bədən kütlə indeksi və kredit kartı borcları artır.

Bədən kütlə indeksinin pozulmasına səbəb isə sosial şəbəkəyə aludə olan şəxsin qidalanmasına lazımi qədər önəm verməməsidir. Amma sosial şəbəkədən asılılıq ciddi xəstəlik sayılır və insanı bu asılılıqdan qurtarmaq siqaret, narkotik kimi digər zərərli vərdişlərdən xilas etmək qədər çətindir. Facebook eyni zamanda insanların şəxsi münasibətlərini də ciddi şəkildə zədələyir. Bəzi hallarda illərlə davam edən dostluqlar sosial şəbəkə daxilində baş verən proseslər ucbatından soyuqlaşır, əlaqələrin kəsilməsinə, insanların bir-birilə kobud davranışına səbəb olur.

## Məktəbdə qusdu, xərçəng olduğu üzə çıxdı



12 yaşlı Tia Lleveyn 4 həftə öncə məktəbdə qusmağa başlayanda müəllimləri onun mədəsini soyuğa verdiyi təxmin edərək evə buraxıblar. "Daily Mail"in xəbərinə görə, Tia səhəri gün yaxşılaşmadığı üçün xəstəxanaya aparılıb. Qan testləri balaca qızda müalicə oluna biləcək növdən xərçəng xəstəliyini olduğunu üzə çıxardı. Ancaq 3 gün sonra məlum oldu ki, bu, xərçəngin ağır növlərindən biridir. Şiş uşağın böyrəklərinə və boynuna qədər yayılıb. Tianın Amerikada müalicə alması lazım idi, amma getməzdən öncə sümük müalicəsi alması lazım idi. Bu müalicə zamanı balaca qız daxili qanaxma keçirincə böyrəkləri iflas etdi. Dializə ehtiyacı olan Tiaya həkimlər müdaxilə etməyə çalışdı, amma qan problemi özünü qabarıq göstərdiyi üçün reanimasiyaya aparıldı. Həkimlər Tianın həyatda qalmasına 5 faiz ehtimal verdi, amma böyük ümidlər qızlarının oyanmasını gözləyirlər.

## Qadının arıqlaması üçün nazir işə qarışdı



Hindistanın daxili işlər naziri Suşma Svarac 500 kilo ağırlığındakı misirli Eman Ahmed Ab Elin viza almasına yardım edib. Eman hindli həkimlərin onu müalicə edəcəyinə ümidlidir. Hindli mütəxəssis Muffazal Lakdavala jurnalistlərə deyib ki, onunla Eman Ahmedin bacısı əlaqə saxlayıb: "O, eşidib ki, mən piylənmədən əziyyət çəkən insanları əməliyyat edirəm. Onlar kasıb ailədilər. Ona görə də özəl bir reyslə Kairdən Mumbaya gəlmək ciblərinə uyğun deyil. Ona görə də biz onlardan pasport və viza qayğılarını həll etməyi xahiş etdik. Digər maddi xərcləri həll etməyi isə mən öz boynuma götürdüm".Tibbi viza almaq isə təxmin edildiyindən daha çətin olub. Eman Ahmedin qohumları deyib ki, səfirlik 20 ildir artıq çəkidən əziyyət çəkən qadının şəxsiyyətini təsdiqlətdirmək üçün şəxsən səfirliyə gəlsin. Bu problemi həll etmək üçün həkim Twitter vasitəsilə Hindistanın daxili işlər naziri Suşma Svaraca müraciət edib. Sonuncu da problemi həll edəcəyinə söz verib.

"Times of India"nın xəbərinə görə, 36 yaşlı Misir sakini olan qadının bədənində yağın disfunksiyası baş verib. Bundan başqa, o, elefantiazdan əziyyət çəkir. Qadın 11 yaşı olanda 500 kilo çəkiyə çatıb. Elə həmin ildən qadın evdən çıxmayıb və bütün həyatı dörd divar arasında keçib.

## Qoroskop






**QOÇ** - Dünəndən mənfi enerjili Ay bürcünüzdə olsa da, bunun nəzərdə tutduğunuz işlərin həyata keçməsinə maneçiliyi olmayacaq. Əksinə, bütün planlarınız reallığa yaxınlaşacaq.



**BUĞA** - Maraqlı sövdələşmələr aparmaq üçün kifayət qədər məhsuldar gündür. Qarşı tərəf sizin bütün təkliflərinizə müsbət rəy bildirəcək. Amma gərək lovğalıqdan uzaq olasınız.



**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyətə yönəldəsiniz. Çünki digər sahələrdə xoşagəlməz hadisələr mümkündür. Pulla bağlı bütün planlarınızı təxirə salın. Uzaq yola çıxmayın.



**XƏRÇƏNG** - Qidanıza fikir verin.Astroloji göstəricilər maliyyə durumunuzun yaxşılaşacağını bəyan edir. Münasibətlər zəminində isə vəziyyət bir qədər gərginləşə bilər. Mübahisədən yayının.



**ŞİR** - Təxminən saat 16-ya qədər gərgin situasiyalarla üzləşə bilərsiniz. Odur ki, oturub-durduğunuz adamların kimliyini götür-qoy edin. Etibar etmədiyiniz kəslərə mühüm sirlərinizi verməyin.



**QIZ** - Həddindən ziyadə yorğun bir gün yaşamalı olacaqsınız. Üzərinizə düşən vəzifələrin məsuliyyətini dərk etməyə çalışın. Həmkarlarınızla yerli-yersiz mübahisəyə girişməyin.



**TƏRƏZİ** - Nəhayət ki, neçə gündən bəri davam edən üzüntülü anlarınız arxada qalacaq. Təxminən saat 11-dən etibarən şəxsi işlərinizdə böyük dönüş baş qaldıracaq. Çətinlikdən qorxmayın.



**ƏQRƏB** - Sevindirici hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, ağlınıza gətirmədiyiniz istiqamətdən işgüzar təkliflər də alasınız. Vaxtınız olsa, müqəddəs yerlərə mütləq baş çəkin.



**OXATAN** - Ünsiyyətdə olduğunuz hər bir kəslə, ələlxüsus da doğmalarınızla mehriban davranın. Nəzərə alın ki, qarşılıqlı hörmət sizə səmərə verə bilər. Qaranlıq havada daha çox evdə olun.



**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimdən qeyri-adi heç nə gözləməyin. Necə deyərlər, başınızı aşağı salıb adi işlərlə məşğul olun. Hər dedi-qoduya ciddi yanaşmayın. Soyuqdan qorunun!



**SUTÖKƏN** - Bir qədər problemli gün hesab etmək olar. Çünki bir tərəfdən səhhətinizdə çətinliklər, digər tərəfdənsə pulsuzluq ovqatınızı korlaya bilər. Heç olmasa münasibətləri tənzimləyin.



**BALIQLAR** - İş üslubunda dönüş yaratmaq üçün şanslarınız artacaq. Bunun üçün ilk növbədə ədalət prinsiplərinə riayət etməyiniz tələb olunur. Özünüzü həmkarlarınızdan daha üstün tutmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Gözləri qıyıq olduğu üçün pasport vermək istəmədilər



Yeni Zelandiyada gözləri qıyıq olan bir vətəndaşa pasport vermək istəməyiblər. Buna səbəb onun aşırı qıyıq gözlərinin şəkil çəkdirərkən az qala yumulu kimi görünməsidir. O, Yeni Zelandiya vətəndaşı olsa da, Avstraliyada oxuyur. Bu səbəbdən də pasportunu internet vasitəsilə yeniləmək istəyib. O, öz şəkilini sayta yükləyəndə bəzi texniki problemlərə görə gözləri bağlı olub. Hadisə Linin avstraliyalı dicey dostunun ona gələn cavabın skrinşotunu öz Facebook səhifəsindən yayımlamasından sonra məşhurlaşıb. Li üçünsə bu hadisə təhqiredici yox, əyləncəli olub. İlk uğursuz cəhddən sonra Li ən yaxınlıqdakı poçt şöbəsinə gedib və daha bir neçə şəkil çəkdirib. Onlardan birini proqram nəhayət ki, qəbul edib və Li pasport şəklini yollamağa müvəffəq olub. Sənədlər ona poçt və ya kuryer vasitəsilə göndəriləcək.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750